# TƏSVİRİ İNCƏSƏNƏT

## METODİK VƏSAİT

# 1



KƏMALƏ CƏFƏRZADƏ

1

# TƏSVİRİ İNCƏSƏNƏT

Umumtəhsil məktəblərinin 1-ci sinfi üçün
Təsviri incəsənət fənni uzrə
METODİK VƏSAİT



Bu nəşrlə bağlı irad və təkliflərinizi
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

## Mündəricat


Giriş ........ 3
Metodik vəsaitin mövzular üzrə strukturu ........ 7
Fənn üzrə məzmun standartlarinin reallaşma cədvəli və illik planlaşdirma nümunəsi .. 8
Fənlərarasi inteqrasiya cədvəli ........ 9
Mövzular üzrə təlim nəticələri ........ 10

1-ci vahid. RƏSSAMIN SEHRLİ DÜNYASI
1. Təsvirlə tanışlıq / *Təsviri incəsənətin insan həyatında rolu* ........ 13
2. Təsvirlərdə forma / *Fiqurların müxtəlifliyi* ........ 14
3. Müşahidə və müqayisə edirəm / *Proporsiya və ölçü* ........ 16
4. Rəsm nədən başlayır? / *Xətlərin müxtəlifliyi və xarakteri* ........ 17
5. Rəsmin təməli / *Kompozisiya* ........ 19
6-7. Rəsm üçün çərçivə / *Həndəsi ornament: aplikasiya* ........ 21
8. Rəssam və mən / *Yaradıcılıq qovluğu — portfolio* ........ 22
Ümumiləşdirici tapşırıqlar ........ 24

2-ci vahid. SEHRLİ BOYALAR
9. Şən quaş / *Əsas rənglər* ........ 25
10. Fırça nəyi bacarır? / *Nəbati ornament* ........ 26
11. İncə akvarel / *Qarışıq rənglər* ........ 29
12. Boyalarda səslənən musiqi / *Musiqi dinləyir və ovqatı təsvir edirik* ........ 30
Ümumiləşdirici tapşırıqlar ........ 32

3-cü vahid. SİRLİ TƏBİƏT
13. Həşəratları bəzəyirik / *Monotipiya* ........ 34
14. Meşə cığırındakı ləpirlər / *Ləkə — sehrli dəyişmə* ........ 35
15. Qış nağılı / *Qrafika* ........ 37
16. Torpağın naxışları / *Xalçaçılıq* ........ 38
17. Əlvan quşlar / *Origami* ........ 39
18. Təbiətin naxışları evimizdə / *Misgərlik* ........ 40
19. Təbiətin yaratdığı evlər / *Konstruksiya* ........ 41
20-21. Təbiətin bayramı / *Novruz adət-ənənələri* ........ 42
Ümumiləşdirici tapşırıqlar ........ 44

4-cü vahid. GÖRMƏK və YARATMAQ MƏHARƏTİ
22. Mənzərə / *Bəhruz Kəngərli* ........ 45
23. Natürmort / *Səttar Bəhlulzadə* ........ 46
24. Süjetli əsərlər / *Əzim Əzimzadə* ........ 47
25. Portret / *Fuad Əbdürrəhmanov* ........ 48
26. Rəssam-illüstrator / *Dekorativ hərflər* ........ 49
27. İncəsənət və mən / *Muzeyə səyahət* ........ 50
Ümumiləşdirici tapşırıqlar ........ 51

Terminlər lüğəti ........ 53
Mənbələr ........ 55

## Giriş

Təsviri incəsənət fənnindən Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli kurikulumu) əsasında hazırlanmış, 1-ci siniflər üzrə müəllim üçün metodik vəsaitdə şagirdin möhtəşəm və maraqlı sənət aləmi haqqında qavrama pillələrinə müvafiq olan və sadədən mürəkkəbə doğru prinsipi ilə tərtib edilmiş mövzulara əsaslanan məzmun nəzərə alınmışdır. Şagird, əlbəttə, müəllimin köməyi ilə bu pillələrlə addım-addım irəlilədikcə incəsənətin mahiyyətini, onun obrazlı dilini və müxtəlif bədii materiallarla ifadəsini anlamağa başlayacaq. İbtidai siniflərdə təsviri incəsənət fənninin mahiyyəti — uşağın ümumi bədii təfəkkürünün inkişaf təməli deməkdir.

## Təsviri incəsənət fənn kurikulumu haqqında

Təsviri incəsənət fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin zənginliyini və rəngarəngliyini şagirdlərə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsilə əyani şəkildə aşılamaq onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.

Təsviri fəaliyyət şagirdləri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatları təsvirlərdə əks etdirməyə imkanlar yaradır. Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir. Təsviri incəsənət fəaliyyəti şagirdləri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə və bu düşüncələri vizual obrazlarda əks etdirməyə istiqamətləndirir.

Təsviri incəsənət fənni şagirdlərdə Azərbaycan və dünya incəsənətinin klassik nümayəndələri və nümunələri haqqında uşaqların məlumat dairəsini genişləndirir, mənəvi aləmini daha da zənginləşdirir. Fənnin məqsədi – estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə, obrazlı düşüncə tərzinə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, incəsənət əsərlərini duyub qiymətləndirməyi bacaran şəxsiyyət formalaşdırmaqdır.

## Müəllim üçün metodik vəsait haqqında

Metodik vəsaitdə verilən mövzular şagirdin yalnız təsvir bacarıqlarına deyil, onun ümumi inkişafına istiqamətlənərək düşünməyə sövq edir, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılayır, tənqidi təfəkkürü inkişaf etdirir. Verilən biliklər müxtəlif həyat hadisələri ilə, fənlərlə inteqrasiya olunaraq mövzunun, anlayışın daha dərindən başa düşülməsinə xidmət edir. Metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- təsviri incəsənət fənn kurikulumu haqqında;
- təsviri incəsənət dərslərinin keçirilməsinə (tədrisinə) dair ümumi tövsiyələr.
- inklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi prinsipləri və formaları;
- təlimin təşkilində istifadə olunan forma və üsullar;
- fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt standartları ilə inteqrasiya cədvəli;
- mövzular üzrə təlim məqsədləri;
- dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat;
- bölmə və vahidlər üzrə qiymətləndirmə vasitələri;
- mövzularda rast gəlinən yeni sözlərin izahı – terminlər lüğəti;
- müəllimin istifadə edə biləcəyi mənbələr.

## Təsviri incəsənət dərslərinin keçirilməsinə (tədrisinə) dair ümumi tövsiyələr

1-ci sinif təsviri incəsənət fənninin məzmununun əsasını bədii fəaliyyətin üç növü təşkil edir. Eyni zamanda bu fəaliyyət növlərinin hər biri şagird işlərinin yaradılmasında iştirak edir və incəsənət növlərinin inteqrasiyasının təməlini təşkil edir, yaradıcı qabiliyyətin inkişafı üçün ilkin vərdişlər verir.




Vəsaitdə təqdim olunan mövzular dörd tədris vahidində cəmləşmişdir. Tədris vahidlərini 6

bölmə və 26 mövzu əhatə edir. Burada təsvirin xırda detallardan deyil, ləkə və formalardan, ümumidən təfərrüata doğru başlandığına xüsusi diqqət yetirmək lazımdır.

1-ci sinifdə təlimin oyun əsasında təşkil edilməsi əhəmiyyətlidir. Çünki bu yaş səviyyəsində olan uşaqların fəal inkişafı, ətraf aləmi dərk etmələri təbiidir. Yaranan situasiyanı söz, hərəkət, jest, səs, intonasiya ilə göstərmək çox vacib məqam sayılır. Müəllim real mühitdə kiçikyaşlı şagirdlər üçün nağıl, xəyallarla dolu obraz yaratmaqla onları dərsə cəlb edir, təxəyyül və fantaziyalarının inkişafında böyük rol oynadığını təmin edir.

*Birinci vahiddə* təsviri sənətin tədrisinin ciddi əsasları mövcuddur. Lakin ardıcıllıqla və oyun formasında qurulduğuna görə, adətən, şagirdlər tərəfindən asanlıqla qavranılır. Təsviri sənət bu yaş səviyyəsində olan şagirdlər üçün müxtəlif texnika və materialların cəlb edilməsi ilə xüsusilə rəngarəng və mahiyyətli olur. Tədris ilinin əvvəlində *ekskursiya* təşkil etməklə ətraf aləmlə tanışlıq, müşahidə və qavrama bacarıqlarını inkişaf etdirmək əhəmiyyətli olardı.

*İkinci vahid* boyalarla tanışlığa həsr olunub. Boyalarla iş xüsusi təşkilati bacarıqlar tələb etdiyinə görə bir qədər ləngidilib. 1-ci sinifdə rənglərin bir-biri ilə qarışdırılması və müxtəlif çalarların alınması əsas məqsəd daşımır. Bu yaşda olan uşaqlar, sadəcə, boyalarla çəkir və rəngləyirlər. Rəng mühiti isə tədricən yuxarı sinifdə öz əksini tapacaq.

*Üçüncü vahid* konstruktiv və dekorativ bacarıqlarla zəngindir. Hər bir əşyanın quruluşunu, bəzəyini görmək və anlamaq, təfəkkürün və zövqün əsas xüsusiyyətləri olaraq, tədricən qazanılır. Şagirdlərin yaradıcılıqda istifadə etdikləri materialları dərindən mənimsəməsi məqsədi ilə vəsait müxtəlif rəngarəng tapşırıqlarla təchiz olunmuşdur. Oyun formasında təqdimat yeni biliklərə yiyələnməyə imkan yaradır. Rübün sonunda doğma şəhərə ekskursiya təşkil etmək, tarixi abidələrlə tanışlıq yerinə düşərdi.

*Dördüncü vahid,* bir növ, nəticə sayıla bilər. Tədris ili ərzində keçirilən dərslərin təkrarı Azərbaycanın görkəmli sənət nümayəndələri və onların məşhur əsərləri ilə tanışlıqda öz əksini tapır. Müəllimin Azərbaycan Dövlət İncəsənət Muzeyinə ekskursiya təşkil etməsi əhəmiyyətli sayılardı.

"Təsviri incəsənət" fənninin əsas xüsusiyyəti — şagirddə yaradıcı inkişafın formalaşdırılmasıdır.

Müəllim üçün vəsaitdə təsviri incəsənət fənninin tədrisi şagirdlərin bədii yaradıcılıq fəaliyyət növləri ilə təqdim edilir: ***naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun olaraq lazım bildiyi qədər istifadə edə bilər. Vəsaitdə, ümumiyyətlə, tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması məqsədi ilə, əsasən, fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər.

*Yaradıcı tətbiqetməyə* çox vaxt tələb olunduğu üçün bu mərhələnin tətbiqinin evdə yerinə yetirilməsi nəzərdə tutulur, lakin müəllimin istəyindən asılı olaraq o, dərsdə də reallaşa bilər.

Şagird işlərinə məzmun, orijinallıq və yaradıcılıq nöqteyi-nəzərindən hər zaman diqqət ayırmaq çox vacibdir. *İşlərin müzakirəsi* şagirdlərin diqqətini aktivləşdirir, yaradıcı ünsiyyət təcrübəsini formalaşdırır.

*Sərgilərin* vaxtaşırı təşkili şagirdlər üçün yeni şəraitdə öz nəticələrini yenidən qiymətləndirmək, nailiyyətlərinə sevinclə nəzər salmaq imkanı verir. Bu işlər valideyn və dostlar üçün hədiyyə, məktəbin tərtibatında isə çox gözəl bəzək nümunələri ola bilər.

**İnklüziv təlim prinsipləri**. *İnklüziv təlimin* əsasını hər bir şagirdə fərdi yanaşma ideyası təşkil edir. *İnklüziya* sağlamlıq imkanları məhdud olan uşaqlarda özünə inam yaratmaqla yanaşı onlara digər yaşıdları ilə eyni məktəbdə təhsil almaq şəraitinin yaradılmasıdır. Xüsusi təlimə tələbatı olan bu cür uşaqların diqqət və yardıma böyük ehtiyacları var. Onların qabiliyyətlərinin və irəliləyişlərinin inkişaf etdirilməsi çox vacib amildir. Belə uşaqlarla işləyərkən müəllim informasiyanı onlara müxtəlif forma və variantlarda çatdırmağa çalışmalıdır. Yeni təlim prinsipləri imkanları məhdud olan uşaqların ümumi təhsil mühitinə inteqrasiya etməsini və ümumi proqram əsasında təhsil almalarını tələb edir.

İnklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşma ideyası təşkil edir. Belə ki, təlim hər bir uşağa məxsus tələbatların ödənilməsi zəminində təşkil olunmalıdır. Hər bir şagird təlimdə uğur qazanması üçün tələb olunan psixoloji yardım, diqqət və qayğı ilə əhatə edilməlidir.

Hər bir məzmun xətti üzrə qiymətləndirmə standartlarının əsasında diferensial təlim nəzərə alınmaqla bilik və bacarıqları möhkəmləndirmək üçün tapşırıqlar, yaradıcı tətbiqetmə xarakterli çalışmalar, praktik işlər üzrə tapşırıqlar, istiqamətləndirici suallar, hər tədris vahidinin sonunda ümumiləşdirici təkrar üçün tapşırıqlar daxildir. İnklüziv təlimin prinsiplərinə uyğun olaraq *xüsusi qayğıya ehtiyacı olan şagirdlər* üçün də çalışmalar nəzərə alınır. Tapşırıqlar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir. Metodik vəsaitdə bu tapşırıqlar belə işarələnib: ☺ *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar.

**Şagird nailiyyətlərinin qiymətləndirilməsi.** Azərbaycan Respublikası təhsil nazirinin 28 dekabr 2018-ci il tarixli 8/2 qərarına əsasən I siniflərdə kiçik və böyük summativ qiymətləndirmə keçirilməsi nəzərdə tutulmur.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| Metodlar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

**Qrup diskussiyaları üçün qrupun özünüqiymətləndirməsi.** Şagirdlər qrup şəklində işləyərkən dərsin sonunda müəllim tərəfindən onlara işlərini qiymətləndirmək üçün vaxt verilir. İşi qiymətləndirdikdən sonra onun səmərəsini necə artırmaq barədə şagirdlər müəllimlə müzakirə apara bilərlər.

| № | Meyarlar | Həmişə | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1 | Müzakirəyə başlamazdan əvvəl tapşırığı dəqiqləşdiririk | | | |
| 2 | Tapşırıqdan kənara çıxmırıq | | | |
| 3 | Hamı fikrini söyləyir | | | |
| 4 | Yekdil rəyə gələ bilirik | | | |
| 5 | Qrupda yerinə yetiriləcək işləri aramızda bölürük | | | |
| 6 | İşi verilən vaxt ərzində yerinə yetiririk | | | |

**Qrup fəaliyyətinin qiymətləndirilməsi.** Şagirdləri qiymətləndirmək üçün müəllim özü də onlarla birlikdə meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl şagirdlərlə birlikdə qrupun fəaliyyətini qiymətləndirmək üçün meyarlar işləyib hazırlamalıdır.

| Qrup | Meyarlar | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Əlavələr | Tərtibat | İş vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |
| IV | | | | | | | |

**Təlimin təşkilində istifadə olunan forma və üsullar.** Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqların formalaşdırılmasının ən real rolu təlim prosesinin əsasında fəal təlim üsullarından istifadə etməklə təşkil etməkdir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formaları və üsullarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar iş mühiti, əməkdaşlıq şəraiti təmin olunur.

**İnformasiya texnologiyalarından istifadə imkanları.** Müasir tədris sistemində informasiya texnologiyaları geniş tətbiq olunur. Hazırda, kənd məktəblərində də dərslərin İKT-nin köməyi ilə keçirilməsi adi hala çevrilib. Lakin vaxt keçdikcə daha yeni informasiya-kommunikasiya texnologiyaları yaranır, inkişaf edir, mükəmməlləşir. Məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıqlar, elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.



İnteraktiv lövhə ilə müəllim, materialı rahatlıqla sinifdəki hər bir şagirdə çatdıra bilər. Lövhə kompyuterə və proyektora qoşulur, üzərində xüsusi elektron qələm — stilius ilə yazmaq olur. Lövhədə slaydlar, video nümayiş etdirmək, şəkil çəkmək, real vaxtda əks olunan şəklin üzərində qeydlər aparmaq mümkündür. Hər dəyişikliyi daxil etməyə və onları kompyuter faylları qismində sonradan redaktə etmək üçün yaddaşda saxlamağa, printerdə çap etməyə, faks və yaxud elektron poçt vasitəsilə göndərməyə imkan verir. Elektron lövhənin digər yaxşı cəhətləri ondadır ki, animasiya imkanı yaradır, real vaxtda çəkilən şəkillərə baxmaq və mühazirələr yazmaq olur. Bütün interaktiv elektron lövhədə yazılan fikirlər kompyuterdə etibarlı saxlanılır və ardıcıllıqla bərpa edilə bilər. İnteraktiv lövhələr dərs prosesini maraqlı edərək şagirdlərdə motivasiyanın inkişafına səbəb olur.



**Təsviri incəsənət dərslərində musiqinin rolu.** Təsviri sənət və musiqi eyni dərəcədə bədii təxəyyülü, fantaziyanı inkişaf etdirir, emosional aktivliyi artırır, bir sözlə, insanın daxili aləminin zənginliyinə gətirib çıxarır. Müəllim nəzərə almalıdır ki, musiqinin səslənməsi görmə obrazlarına xüsusi ahəng və qabarıqlıq verir. Musiqi fraqmentinin optimal səslənmə müddəti konkret şəraitdən asılı olaraq 20 – 40 saniyədir.

Təsviri sənətlə ünsiyyət prosesini daha səmərəli və sevindirici etməyə imkan yaradan bu vəsait, eyni zamanda şagirdlərin incəsənətə marağının dərinləşməsində və yaradıcılıq imkanlarının inkişafında əvəzsiz yardımçı olacaq.

## I sinif üzrə təsviri incəsənət fənn kurikulumunun təkmilləşdirilmiş variantı

### I sinfin sonunda şagird:

**• təsviri və dekorativ sənətin əsas növlərini sadalayır; •Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələrinin (B.Kəngərli, Ə.Əzimzadə, S.Bəhlulzadə, F.Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır; • sadə təsvir alətlərindən (karandaş, fırça, flomaster, kömür) və bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə edir; • sadə həndəsi fiqurlar çəkir, kiçik kompozisiyalar qurur;**

**• verilmiş sadə formalı əşyaları şərh edir, rəng çalarlarına ayırır.**

**1. Cəmiyyət və təsviri incəsənət / Şagird:**
**1.1. Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.**
1.1.1. Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) sadalayır.
1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (xalçaçılıq, misgərlik, milli geyim) sadalayır.
1.1.3. Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır.
**2. Təsviri və dekorativ yaradıcılıq / Şagird:**
**2.1. Təsviri sənət üzrə zəruri sadə təsvir alətlərindən istifadə bacarıqlarını nümayiş etdirir.**
2.1.1. Sadə təsvir alətlərindən (karandaş, qələm, fırça, flomaster, kömür) təyinatına görə istifadə edir.

2.1.2. Sadə bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir.
2.1.3. Əsas rəngləri tanıyır, onları sadalayır.
2.1.4. Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır.
**2.2. Sadə tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir.**
2.2.1. Müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir, plastik materialdan sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur.
**3. Estetik reaksiya / Şagird:**
**3.1. Verilmiş sadə təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.**
3.1.1. Verilmiş sadə formalı təsvir və əşyaları şərh edir.
3.1.2. Verilmiş əsərlərdə rəng çalarlarını ayırır və adlandırır.

## METODİK VƏSAİTİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDİ | BÖLMƏ | MÖVZULAR | ALT BAŞLIQLAR |
|---|---|---|---|
| 1. RƏSSAMIN SEHRLİ DÜNYASI | FORMANI ÖYRƏNİRİK | 1. Təsvirlə tanışlıq | Təsviri incəsənətin insan həyatında rolu |
| | | 2. Təsvirlərdə forma | Fiqurların müxtəlifliyi |
| | | 3. Müşahidə və müqayisə edirəm | Proporsiya və ölçü |
| | RƏSMİN ƏLİFBASI | 4. Rəsm nədən başlayır? | Xətlərin müxtəlifliyi və xarakteri |
| | | 5. Rəsmin təməli | Kompozisiya |
| | | 6-7. Rəsm üçün çərçivə | Həndəsi ornament: aplikasiya |
| | | 8. Rəssam və mən | Yaradıcılıq qovluğu – portfolio |
| 2. SEHRLİ BOYALAR | RƏNGLƏRİN OVQATI | 9. Şən quaş | Əsas rənglər |
| | | 10. Fırça nəyi bacarır? | Nəbati ornament |
| | | 11. İncə akvarel | Qarışıq rənglər |
| | | 12. Boyalarda səslənən musiqi | Musiqi dinləyir və ovqatı təsvir edirik |
| 3. SİRLİ TƏBİƏT | TƏBİƏTİ TƏRƏNNÜM EDƏN NAXIŞLAR | 13. Həşəratları bəzəyirik | Monotipiya |
| | | 14. Meşə cığırındakı ləpirlər | Ləkə – sehrli dəyişmə |
| | | 15. Qış nağılı | Qrafika |
| | | 16. Torpağın naxışları | Xalçaçılıq |
| | | 17. Əlvan quşlar | Oriqami |
| | SƏNƏTKAR və TƏBİƏT | 18. Təbiətin naxışları evimizdə | Misgərlik |
| | | 19. Təbiətin yaratdığı evlər | Konstruksiya |
| | | 20-21. Təbiətin bayramı | Novruz adət-ənənələri |
| 4. GÖRMƏK və YARATMAQ MƏHARƏTİ | TƏSVİRİ YARADICILIQ | 22. Mənzərə | Bəhruz Kəngərli |
| | | 23. Natürmort | Səttar Bəhlulzadə |
| | | 24. Süjetli əsərlər | Əzim Əzimzadə |
| | | 25. Portret | Fuad Əbdürrəhmanov |
| | | 26. Rəssam-illüstrator | Dekorativ hərflər |
| | | 27. İncəsənət və mən | Muzeyə səyahət |

*Metodik vəsaitdə olan mövzuların adı obrazlı xarakter daşıyır və şagirdə yönəlmişdir. Başlıqların altında yazılan adlar isə müəllim üçündür – şagirdlərin fəaliyyətinə yönəlmişdir. Onlar fəaliyyətin əsas istiqaməti və ardıcıllığıdır.*

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ və İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ

| TƏDRİS VAHİDİ, BÖLMƏ və MÖVZULAR | | | Məşğələ növü | Cəmiyyət və təsviri incəsənət | | | Təsviri və dekorativ yaradıcılıq | | | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | | | 2.1. | | | | 2.2. | 3.1. | | |
| | | | | 1.1.1. | 1.1.2. | 1.1.3 | 2.1.1. | 2.1.2. | 2.1.3. | 2.1.4. | 2.2.1. | 3.1.1. | 3.1.2. | |
| 1. RƏSSAMIN SEHRLİ DÜNYASI | Formanı öyrənirik | **1. Təsvirlə tanışlıq** -Təsviri incəsənətin insan həyatında rolu - | Mövzu üzrə rəsm | | | | | | + | + | | + | | 1 |
| | | **2. Təsvirlərdə forma** - Fiqurların müxtəlifliyi - | Mövzu üzrə rəsm | | | | | | | + | + | + | | 1 |
| | | **3. Müşahidə və müqayisə edirəm** - Proporsiya və ölçü - | Naturadan yapma | + | | | | | + | | | + | | 1 |
| | Rəsmin əlifbası | **4. Rəsm nədən başlayır?** - Xətlərin müxtəlifliyi və xarakteri - | Mövzu üzrə rəsm | | | | + | + | | | + | | | 1 |
| | | **5. Rəsmin təməli** - Kompozisiya - | Dekorativ-tətbiqi fəaliyyət: aplikasiya | | | | + | | + | | + | | | 1 |
| | | **6-7. Rəsm üçün çərçivə** - Həndəsi ornament: aplikasiya - | Dekorativ-tətbiqi fəaliyyət: aplikasiya | | | | + | | | | + | + | | 2 |
| | | **8. Rəssam və mən** - Yaradıcılıq qovluğu — portfolio - | Mövzu üzrə rəsm | | | | | | + | + | | | | 1 |
| | **Tədris vahidi üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | | 1 |
| 2. SEHRLİ BOYALAR | Rənglərin ovqatı | **9. Şən quaş** - Əsas rənglər- | Mövzu üzrə rəsm | + | | | + | | + | | + | | | 1 |
| | | **10. Fırça nəyi bacarır?** - Nəbati ornament- | Dekorativ-tətbiqi fəaliyyət | + | + | | + | | | | | | + | 1 |
| | | **11. İncə akvarel** - Qarışıq rənglər - | Mövzu üzrə rəsm | + | | | + | | | | | | + | 1 |
| | | **12. Boyalarda səslənən musiqi** - Musiqi dinləyir və ovqatı təsvir edirik - | Mövzu üzrə rəsm | + | | | + | | | | | + | | 1 |
| | | **Tədris vahidi üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | 1 |
| **I yarımil üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | | | 1 |
| 3. SİRLİ TƏBİƏT | Təbiəti tərənnüm edən naxışlar | **13. Həşəratları bəzəyirik** - Monotipiya - | Dekorativ-tətbiqi fəaliyyət | | | | + | | | | + | + | | 1 |
| | | **14. Meşə cığırındakı ləpirlər** - Ləkə – sehrli dəyişmə - | Mövzu üzrə rəsm | + | | | + | | | | | + | | 1 |
| | | **15. Qış nağılı** - Qrafika - | Mövzu üzrə rəsm | + | | | | + | | | | | | 1 |
| | | **16. Torpağın naxışları** - Xalçaçılıq - | Dekorativ-tətbiqi fəaliyyət | | | | + | | | | | + | | 1 |
| | | **17. Əlvan quşlar** - Oriqami - | Konstruksiya | | | | | | | | + | + | | 1 |
| | Sənətkar və təbiət | **18. Təbiətin naxışları evimizdə** - Misgərlik - | Dekorativ-tətbiqi fəaliyyət: yapma | | + | | | | | | | + | | 1 |
| | | **19. Təbiətin yaratdığı evlər** - Konstruksiya - | Dekorativ-tətbiqi fəaliyyət | | | | + | | | | + | | + | 1 |
| | | **20-21. Təbiətin bayramı** - Novruz adət-ənənələri - | Dekorativ-tətbiqi fəaliyyət | | | | + | | | | + | | | 2 |
| | **Tədris vahidi üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | | 1 |
| 4. GÖRMƏK və YARATMAQ MƏHARƏTİ | Təsviri yaradıcılıq | **22. Mənzərə** - Bəhruz Kəngərli - | Mövzu üzrə rəsm | + | | + | + | | | | | + | | 1 |
| | | **23. Natürmort** - Səttar Bəhlulzadə - | Naturadan rəsm | + | | + | + | | | | | + | | 1 |
| | | **24. Süjetli əsərlər** - Əzim Əzimzadə - | Mövzu üzrə rəsm | + | | + | | | | | | + | | 1 |
| | | **25. Portret** - Fuad Əbdürrəhmanov - | Yapma | + | | + | | | | | + | + | | 1 |
| | | **26. Rəssam-illüstrator** - Dekorativ hərflər - | Dekorativ-tətbiqi fəaliyyət | | | | + | | + | | + | + | | 1 |
| | | **27. İncəsənət və mən** - Muzeyə səyahət – | Mövzu üzrə rəsm | + | + | + | | | | | | | | 1 |
| | **Tədris vahidi üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | | 1 |
| **II yarımil üzrə ümumiləşdirici dərs** | | | | | | | | | | | | | | 1 |

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ, BÖLMƏ və MÖVZULAR | | | | FƏNNİN ADI və ALT STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|---|
| 1. RƏSSAMIN SEHRLİ DÜNYASI | Formanı öyrənirik | 1. | **Təsvirlə tanışlıq**<br>-Təsviri incəsənətin insan həyatında rolu - | A-d.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; X-d.: 1.1.1.; 1.1.3. |
| | | 2. | **Təsvirlərdə forma**<br>- Fiqurların müxtəlifliyi - | A-d.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; X-d.: 1.1.1.; 1.1.3. |
| | | 3. | **Müşahidə və müqayisə edirəm**<br>-Proporsiya və ölçü - | A-d.: 1.1.1; 1.1.2; X-d.: 2.2.1; İnf.: 1.2.2; 1.2.3. |
| | Rəsmin əlifbası | 4. | **Rəsm nədən başlayır?**<br>- Xətlərin müxtəlifliyi və xarakteri - | A-d.: 1.1.1.; 1.1.2.; İnf.: 2.1.1.; X-d.: 1.1.1. |
| | | 5. | **Rəsmin təməli**<br>- Kompozisiya - | A-d.: 1.1.2.; 1.2.1.; X-d.: 1.1.1.; 1.1.3. |
| | | 6-7. | **Rəsm üçün çərçivə**<br>- Həndəsi ornament: aplikasiya - | A-d.: 1.1.2.; 2.1.1.; Tex.: 1.1.2.;1.2.3.;1.3.1.;1.3.3.;1.3.6.; X-d.: 1.1.1. |
| | | 8. | **Rəssam və mən**<br>- Yaradıcılıq qovluğu — portfolio - | A-d.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; X-d.: 1.1.1.; 1.1.3. |
| 2. SEHRLİ BOYALAR | Rənglərin ovqatı | 9. | **Şən quaş**<br>- Əsas rənglər - | A-d.: 1.1.2; 1.2.1; X-d.: 1.1.1; H-b.: 1.1.1; İnf.: 1.2.1. |
| | | 10. | **Firça nəyi bacarır?**<br>- Nəbati ornament - | A-d.: 1.1.2; X-d.: 1.1.1; 1.1.2; Tex.: 4.1.1. |
| | | 11. | **İncə akvarel**<br>- Qarışıq rənglər - | A-d.: 1.1.2; 1.2.1; X-d.: 1.1.1; H-b.: 1.1.1; İnf.: 1.2.1. |
| | | 12. | **Boyalarda səslənən musiqi**<br>- Musiqi dinləyir və ovqatı təsvir edirik - | A-d.: 1.1.2; Mus.: 2.1.1; 2.1.3; İnf.: 1.1.2; 3.3.1. |
| 3. SİRLİ TƏBİƏT | Təbiəti tərənnüm edən naxışlar | 13. | **Həşəratları bəzəyirik**<br>- Monotipiya - | A-d.: 1.1.1; 1.1.2; İnf.: 1.1.2; Tex.: 1.1.1; 1.2.2; 1.3.1; 1.3.3; 1.3.4. |
| | | 14. | **Meşə cığırındakı ləpirlər**<br>- Ləkə – sehrli dəyişmə - | A-d.: 1.1.1.; 2.2.4; X-d.: 2.2.1.; İnf.: 1.1.1. |
| | | 15. | **Qış nağılı**<br>- Qrafika - | A-d.: 1.1.1; 1.2.1; X-d.: 1.1.3; Tex.: 1.3.3; 1.3.6. |
| | | 16. | **Torpağın naxışları**<br>- Xalçaçılıq - | A-d.:1.1.1; 1.1.2; X-d.:2.2.1. |
| | | 17. | **Əlvan quşlar**<br>- Oriqami - | A-d.: 1.2.1; Tex.: 1.2.2;1.3.3; 1.3.6. |
| | Sənətkar və təbiət | 18. | **Təbiətin naxışları evimizdə**<br>- Misgərlik - | A-d.: 1.1.1; 1.2.1; X-d.: 1.1.3; Tex.: 1.3.3; 1.3.6. |
| | | 19. | **Təbiətin yaratdığı evlər**<br>- Konstruksiya - | A-d.: 1.1.1; 1.1.2; X-d.: 1.1.2; Tex.: 1.3.4; 1.3.6. |
| | | 20-21. | **Təbiətin bayramı**<br>- Novruz adət-ənənələri - | A-d.: 1.1.1; 1.1.2; Tex.: 1.2.3; 1.3.3; 1.3.4; 1.3.6. |
| 4. GÖRMƏK və YARATMAQ MƏHARƏTİ | Təsviri yaradıcılıq | 22. | **Mənzərə**<br>- Bəhruz Kəngərli - | A-d.: 1.1.1; 1.1.2; Tex.: 4.1.1; İnf.: 1.2.3; X-d.: 2.2.1; 2.2.2. |
| | | 23. | **Natürmort**<br>- Səttar Bəhlulzadə - | A-d.: 1.1.1; 1.1.2; Tex.: 4.1.1; İnf.: 1.2.3; X-d.: 2.2.1; 2.2.2. |
| | | 24. | **Süjetli əsərlər**<br>- Əzim Əzimzadə - | A-d.: 1.1.1; 2.1.1; X-d.: 1.1.1; 2.2.1; İnf.: 1.1.1; 1.2.1. |
| | | 25. | **Portret**<br>- Fuad Əbdürrəhmanov - | A-d.: 1.1.1; 1.1.2; X-d.: 1.1.3; 2.2.1; İnf.: 1.1.3; 1.2.2. |
| | | 26. | **Rəssam-illüstrator**<br>- Dekorativ hərflər - | A-d.: 1.1.2; 1.2.1; X-d.: 1.1.3; İnf.: 1.1.2; 1.2.2. |
| | | 27. | **İncəsənət və mən**<br>- Muzeyə səyahət – | A-d.: 1.1.1; 1.2.1; X-d.: 1.1.2; 2.2.1; İnf.: 2.1.1. |

*A-d. – Ana dili, Riy. – Riyaziyyat, H-b. – Həyat bilgisi, X-d. – Xarici dil, Tex. – Texnologiya, Mus. – Musiqi, İnf. – İnformatika*

## MÖVZULAR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

| № | MÖVZULAR | TƏLİM NƏTİCƏLƏRİ |
|---|---|---|
| 1. | **Təsvirlə tanışlıq**<br>-Təsviri incəsənətin insan həyatında rolu- | • əsas rəngləri tanıyır, rəngli karandaşların nümunəsində onları sadalayır;<br>• sadə və rəngli karandaş, flomasterlərlə istədiyi təsviri yaradır;<br>• rəssamın yaratdığı təsvirləri, sadə şagird rəsmlərini və əşyaları şərh edir. |
| 2. | **Təsvirlərdə forma**<br>- Fiqurların müxtəlifliyi- | • sadə və rəngli karandaşlarla həndəsi fiqurlardan ibarət səthi təsvir yaradır;<br>• müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir, fiqurları əşyalara çevirir, kiçik kompozisiyalar qurur;<br>• verilmiş sadə formalı həndəsi fiqurlardan ibarət təsvir və əşyaları şərh edir. |
| 3. | **Müşahidə və müqayisə edirəm**<br>- Proporsiya və ölçü - | • təsviri sənətin əsas növlərindən olan heykəltəraşlıq haqqında bildiklərini nümayiş etdirir;<br>• əsas rəngləri tanıyır, meyvə, tərəvəz və giləmeyvələrin nümunəsində onları sadalayır;<br>• verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma və ölçülərini müqayisə və şərh edir. |
| 4. | **Rəsm nədən başlayır?**<br>- Xətlərin müxtəlifliyi və xarakteri - | • sadə təsvir alətlərindən olan karandaş, qələm, flomasteri təyinatına görə istifadə edir;<br>• sadə bədii ifadə vasitələrindən olan xətt və cizginin istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir;<br>• müxtəlif növ xətlərdən sadə fiqurlar, əşyalar çəkir, kiçik kompozisiyalar qurur. |
| 5. | **Rəsmin təməli**<br>- Kompozisiya - | • yarpağın yapışdırılmasında sadə təsvir alətlərindən qayçı və yapışqandan istifadə edir;<br>• əsas rəngləri tanıyır, payız yarpaqlarının nümunəsində onları sadalayır;<br>• müxtəlif növ xətlərdən yarpağın formasını çəkir, qurumuş yarpaqlardan kiçik kompozisiyalar qurur. |
| 6-7. | **Rəsm üçün çərçivə**<br>- Həndəsi ornament: aplikasiya - | • sadə təsvir alətlərindən olan karandaş, qayçı, yapışqanı təyinatına görə istifadə edir;<br>• müxtəlif növ rəngli kağızlardan sadə həndəsi fiqurlar kəsir, kəsilmiş hazır fiqurlardan kiçik naxış kompozisiyalarından ibarət çərçivə hazırlayır;<br>• verilmiş sadə formalı naxışlarla bəzədilmiş əşyaları şərh edir. |
| 8. | **Rəssam və mən**<br>- Yaradıcılıq qovluğu — portfolio - | • sadə və rəngli karandaşlarla səthi təsvir yaradır;<br>• əsas rəngləri tanıyır, onları sadalayır. |
| 9. | **Şən quaş**<br>- Əsas rənglər - | • təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında bildiklərini sadalayır;<br>• sadə təsvir alətlərindən olan fırçanı təyinatına görə istifadə edir;<br>• əsas rəngləri tanıyır, onları sadalayır. |
| 10. | **Firça nəyi bacarır?**<br>- Nəbati ornament - | • təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında bildiklərini sadalayır;<br>• dekorativ-tətbiqi sənətin əsas növlərindən olan milli geyim haqqında bildiklərini sadalayır;<br>• sadə təsvir alətlərindən olan fırçanı təyinatına görə istifadə edir;<br>• verilmiş naxışlarda rəng çalarlarını ayırır və adlandırır. |
| 11. | **İncə akvarel**<br>- Qarışıq rənglər - | • təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında bildiklərini söyləyir;<br>• sadə təsvir alətlərindən fırça ilə göy qurşağını təsvir edir;<br>• verilmiş təbiət hadisəsində rəng çalarlarını ayırır və adlandırır. |
| 12. | **Boyalarda səslənən musiqi**<br>- Musiqi dinləyir və ovqatı təsvir edirik - | • təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında fikirlərini sadalayır;<br>• sadə təsvir alətlərindən fırça ilə musiqini hiss etdiyi kimi təsvir edir;<br>• çəkdiyi təsvir və əşyaları şərh edir. |
| 13. | **Həşəratları bəzəyirik**<br>- Monotipiya - | • sadə təsvir alətlərindən fırça və flomasteri təyinatına görə istifadə edir;<br>• müxtəlif növ xətlərdən varlıqlar çəkir, kiçik kompozisiyalar qurur;<br>• verilmiş sadə formalı monotipiya təsvirləri və əşyaları şərh edir. |
| 14. | **Meşə cığırındakı ləpirlər**<br>- Ləkə – sehrli dəyişmə - | • təsviri sənətin əsas rəngkarlıq növü haqqında bildiklərini sadalayır;<br>• sadə təsvir alətlərindən fırçanı təyinatına görə istifadə edir;<br>• sadə formalı quş və heyvanlar haqqında oyrəndiklərini şərh edir. |
| 15. | **Qış nağılı**<br>- Qrafika - | • təsviri sənətin əsas növlərindən olan qrafika haqqında bildiklərini sadalayır;<br>• sadə karandaşlarla səthi təsvir yaradır;<br>• verilmiş sadə formalı təsvir və əşyaları şərh edir. |
| 16. | **Torpağın naxışları**<br>- Xalçaçılıq - | • dekorativ-tətbiqi sənətin növü olan xalçaçılıq haqqında bildiklərini sadalayır;<br>• sadə təsvir alətlərindən flomaster və fırçanı təyinatına görə istifadə edir;<br>• verilmiş sadə formalı xalça təsvirlərini şərh edir;<br>• verilmiş xalçalarda rəng çalarlarını ayırır və adlandırır. |

| | | |
|---|---|---|
| 17. | **Əlvan quşlar**<br>- Oriqami - | • rəngli kağızdan oriqami düzəldir, hazır oriqamilərdən kiçik kompozisiyalar qurur;<br>• verilmiş sadə formalı oriqamini şərh edir. |
| 18. | **Təbiətin naxışları evimizdə**<br>- Misgərlik - | • dekorativ-tətbiqi sənətin əsas növü olan misgərliyi tanıdığını nümayiş etdirir;<br>• müxtəlif plastik materialdan qablar düzəldir, hazır qabların üzərində naxış kompozisiyaları qurur;<br>• verilmiş sadə formalı mis qabları şərh edir. |
| 19. | **Təbiətin yaratdığı evlər**<br>- Konstruksiya - | • sadə təsvir alətlərindən karandaş, fırça, flomasterlə evin təsvirində istifadə edir;<br>• müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir və kiçik kompozisiyalar qurur;<br>• təsvir etdiyi evin rəng çalarlarını ayırır və adlandırır. |
| 20-21. | **Təbiətin bayramı**<br>- Novruz adət-ənənələri - | • sadə təsvir alətlərindən (karandaş, qələm, fırça, flomaster) yumurtaları bəzəmək üçün istifadə edir;<br>• müxtəlif növ xətlərdən naxış çəkir, kiçik kompozisiyalar qurur. |
| 22. | **Mənzərə**<br>- Bəhruz Kəngərli - | • təsviri sənətin əsas növünü – rəngkarlığı tanıyır, sadalayır;<br>• Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Bəhruz Kəngərlini və onun ən məşhur əsərlərini sadalayır;<br>• sadə təsvir alətlərindən fırçanı təyinatına görə istifadə edir;<br>• verilmiş mənzərə təsvirlərini və əşyaları şərh edir. |
| 23. | **Natürmort**<br>- Səttar Bəhlulzadə - | • təsviri sənətin əsas növü olan rəngkarlıq haqqında bildiklərini söyləyir;<br>• Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Səttar Bəhlulzadəni və onun ən məşhur əsərlərini sadalayır;<br>• sadə təsvir alətlərindən fırçanın işləmə üsulları ilə natürmortu rəngləyir;<br>• verilmiş rəssam təsvirlərini və çəkdiyi əşyaları şərh edir; |
| 24. | **Süjetli əsərlər**<br>- Əzim Əzimzadə - | • Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Əzim Əzimzadəni və onun ən məşhur əsərlərini sadalayır;<br>• sadə və rəngli karandaşlarla səthi təsvir yaradır;<br>• verilmiş sadə formalı təsvir və əşyaları şərh edir. |
| 25. | **Portret**<br>- Fuad Əbdürrəhmanov - | • təsviri sənətin əsas növlərindən heykəltəraşlıq haqqında bildiklərini sadalayır;<br>• Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Fuad Əbdürrəhmanovu və onun ən məşhur əsərlərini sadalayır;<br>• plastilindən sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur;<br>• verilmiş heykəl təsvirlərini və əşyaları şərh edir. |
| 26. | **Dekorativ hərflər**<br>- Rəssam-illüstrator- | • sadə təsvir alətlərindən olan karandaş və flomaster ilə baş hərfin təsvirində istifadə edir;<br>• əsas rəngləri tanıyır, onları sadalayır;<br>• müxtəlif növ xətlərdən sadə hərflər çəkir, hazır hərflərdən kiçik kompozisiyalar qurur;<br>• verilmiş sadə formalı illüstrasiyaları və çəkdiyi hərflərdəki mənanı şərh edir. |
| 27. | **İncəsənət və mən**<br>- Muzeyə səyahət - | • təsviri sənətin əsas növləri haqqında bildiklərini sadalayır;<br>• verilmiş sadə formalı təsvir və əşyaları şərh edir. |

## MƏŞĞƏLƏLƏRDƏ İSTİFADƏ EDİLƏCƏK MATERİAL VƏ ALƏTLƏR

| № | MÖVZULAR | İSTİFADƏ EDİLƏN TƏCHİZAT | |
|---|---|---|---|
| | | **Müəllim üçün** | **Şagird üçün** |
| 1. | **Təsvirlə tanışlıq**<br>- Təsviri incəsənətin insan həyatında rolu - | qiymətləndirmə cədvəlləri, müxtəlif texnikalarda yerinə yetirilmiş şagird işləri, rəssam əsərlərinin reproduksiyaları | A4 formatlı rəsm vərəqləri, rəngli karandaşlar, flomasterler |
| 2. | **Təsvirlərdə forma**<br>- Fiqurların müxtəlifliyi- | qiymətləndirmə cədvəlləri, kompyuter, proyektor, interaktiv lövhə, həndəsi fiqurların maketi, sadə əşyalar | A3 formatlı rəsm vərəqləri, rəngli karandaşlar, flomasterler, tabaşirlər |
| 3. | **Müşahidə və müqayisə edirəm**<br>- Proporsiya və ölçü - | qiymətləndirmə cədvəlləri, kompyuter, proyektor, interaktiv lövhə, payız məhsulları və ya mulyajlar | plastilin, plastik lövhə, əsgi parçası, heykəltəraş çubuqları, meyvə və tərəvəz nümunəsi |
| 4. | **Rəsm nədən başlayır?**<br>- Xətlərin müxtəlifliyi və xarakteri - | qiymətləndirmə cədvəli, kompyuter, proyektor, interaktiv lövhə, təbiətdə, rəssam əsərlərində xətt formalarından ibarət şəkil və təsvirlər | A4 formatlı rəsm vərəqi, rəngli karandaşlar, flomasterlər |

| | | | |
|---|---|---|---|
| 5. | **Rəsmin təməli**<br>- Kompozisiya - | interaktiv lövhə, yarpaqlardan kompozisiya nümunələri | A 3 formatlı rəsm vərəqi, qurudulmuş ağac yarpaqları, PVA yapışqanı, toxumlar, plastilin, rəngli kağızlar və karton, qayçı |
| 6-7. | **Rəsm üçün çərçivə**<br>- Həndəsi ornament: aplikasiya - | qiymətləndirmə cədvəli, kompyuter, proyektor, interaktiv lövhə, çərçivə nümunələri (foto və ya əyani) | A4 formatlı rəsm vərəqi, rəngli kağız, karton, qayçı, yapışqan |
| 8. | **Rəssam və mən**<br>- Yaradıcılıq qovluğu—portfolio - | metodik vəsait, qiymətləndirmə cədvəli | A 4 formatlı rəsm vərəqi, rəngli karandaşlar, flomasterlər, rəngli qələmlər, qovluq |
| 9. | **Şən quaş**<br>- Əsas rənglər - | metodik vəsait, interaktiv lövhə, müxtəlif rənglərdə olan əşyaların şəkilləri, qiymətləndirmə cədvəlləri | üzərinə ağ kağız yapışdırılmış karandaş yığmaq üçün qab, quaş, fırça, su bankası, müşəmbə, əsgi parçası |
| 10. | **Firça nəyi bacarır?**<br>- Nəbati ornament - | fırça ilə çəkilmiş müxtəlif naxış təsvirləri, qiymətləndirmə cədvəlləri | albom, fırça, quaş |
| 11. | **İncə akvarel**<br>- Qarışıq rənglər - | metodik vəsait, qiymətləndirmə cədvəli, müxtəlif təbiət təsvirləri | A3 formatlı rəsm vərəqi, akvarel, fırça |
| 12. | **Boyalarda səslənən musiqi**<br>- Musiqi dinləyir və ovqatı təsvir edirik - | müxtəlif janrda olan musiqilər, metodik vəsait, qiymətləndirmə cədvəli | A3 formatlı rəsm vərəqi, quaş, fırça |
| 13. | **Həşəratları bəzəyirik**<br>- Monotipiya - | metodik vəsait, qiymətləndirmə vərəqləri | A3 formatlı rəsm vərəqi, quaş, fırça, flomaster |
| 14. | **Meşə cığırındakı ləpirlər**<br>- Ləkə – sehrli dəyişmə - | metodik vəsait, qiymətləndirmə vərəqləri | A4 formatlı rəsm vərəqi, quaş, fırça |
| 15. | **Qış nağılı**<br>- Qrafika - | metodik vəsait, qiymətləndirmə vərəqləri, rəssam əsərləri | A3 formatlı ağ və qara vərəq, qara qələm və flomaster, ağ və qara quaş, fırça |
| 16. | **Torpağın naxışları**<br>- Xalçaçılıq - | metodik vəsait, qiymətləndirmə cədvəlləri, gül-çiçək və xalça təsvirləri | A3 formatlı rəsm vərəqi, flomaster, quaş |
| 17. | **Əlvan quşlar**<br>- Oriqami - | metodik vəsait, qiymətləndirmə cədvəli, oriqaminin mərhələlərlə verilməsinin surəti | A4 formatlı ağ və rəngli (açıq rənglərdə) vərəqlər, flomasterlər |
| 18. | **Təbiətin naxışları evimizdə**<br>- Misgərlik - | metodik vəsait, qiymətləndirmə cədvəli, nümunə üçün qablar | plastilin, plastik lövhə, plastik heykəltəraş bıçağı |
| 19. | **Təbiətin yaratdığı evlər**<br>- Konstruksiya - | metodik vəsait, qiymətləndirmə üçün vərəqlər | rəngli karandaş, flomaster, quaş, fırça |
| 20-21. | **Təbiətin bayramı**<br>- Novruz adət-ənənələri - | metodik vəsait, qiymətləndirmə cədvəli, anlayışın çıxarılması üçün kartoçkalar, Novruz bayramına, naxışlı yumurtalara aid şəkillər | A4 formatlı rəsm vərəqləri, qayçı, quaş, rəngli flomaster və karandaşlar |
| 22. | **Mənzərə**<br>- Bəhruz Kəngərli - | Bəhruz Kəngərlinin əsərlərinin reproduksiyaları, metodik vəsait, qiymətləndirmə cədvəli | A3 formatlı rəsm vərəqi, akvarel, fırça |
| 23. | **Natürmort**<br>- Səttar Bəhlulzadə - | S.Bəhlulzadənin əsərlərinin reproduksiyası, qiymətləndirmə cədvəli, metodik vəsait | albom, quaş, fırça |
| 24. | **Süjetli əsərlər**<br>- Əzim Əzimzadə - | Ə.Əzimzadənin əsərlərinin reproduksiyası, qiymətləndirmə cədvəli, metodik vəsait | A4 formatlı ağ və qara vərəq, qara qələm və flomaster, ağ və qara quaş, fırça |
| 25. | **Portret**<br>- Fuad Əbdürrəhmanov- | F.Əbdürrəhmanovun əsərlərinin reproduksiyası, metodik vəsait, qiymətləndirmə cədvəlləri | plastilin, plastik lövhə, bıçaq, çöplər |
| 26. | **Dekorativ hərflər**<br>- Rəssam-illüstrator - | metodik vəsait, qiymətləndirmə cədvəlləri, nağıl illüstrasiyaları | albom, quaş, rəngli karandaşlar, flomasterlər |
| 27. | **İncəsənət və mən**<br>- Muzeyə səyahət - | tədris ili ərzində toplanan şagird işləri | albom, flomasterlər |

—1-ci vahid —
# RƏSSAMIN SEHRLİ DÜNYASI

MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ
İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

---

## 1. TƏSVİRLƏ TANIŞLIQ

*— Təsviri incəsənətin insan həyatında rolu —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi —* ***təsviri incəsənət fənni ilə tanışlıqdır****. Bu tanışlıq şagirdlər üçün sevindirici, aydın, eyni zamanda da öyrədici olmalıdır. İncəsənət məşğələlərində müəllim və şagird arasında qarşılıqlı inam mühitinin yaranmasına nail olmaq lazımdır. Şagirdlər qarşılaşdıqları müxtəlif təsvirlərin insan həyatında nə kimi əhəmiyyət daşıdığının, kim tərəfindən yaradıldığı haqda düşünür. Növbəti dərslərdə təsvir etmək, yapmaq, aplikasiya və konstruksiyalar düzəltmək təsvirlə tanışlıqdan başlayır və rəssamın insan həyatında oynadığı rolun mahiyyətini dərk edirlər.*

*Müəllimin ilk dərsdə yuxarı sinif şagirdlərinin müxtəlif mövzu və texnikalarda yaratdıqları rəsmlərindən sərgi təşkil etməsi şagirdlər üçün faydalı olardı. Beləliklə, müəllim şagirdlərdə rəsm haqqında təsəvvürləri formalaşdırır, onların məzmununu başa düşməyi öyrədir, ilkin qavrama vərdişlərini inkişaf etdirir.*

İlk dərs olduğuna görə şagirdlərə müxtəlif düşündürücü suallarla müraciət oluna bilər. Bu suallar təsviri incəsənət fənninin mahiyyəti, məşğələ zamanı istifadə ediləcək material və rənglər haqqında, rəssamın kim olduğu və ilk təsvirlərin nə zaman yarandığı barədə ola bilər.

Şagirdlərin diqqəti lövhədəki rəssam əsərlərinin reproduksiyalarına, abidələrin fotoşəkillərinə yönəldilir, onların kim tərəfindən yaradılması haqqında soruşulur. Onlara rəssamın ətraf aləmi təsvir etməyi bacaran sehrkar olduğu vurğulana bilər və onun çəkdiklərinin "TƏSVİR" adlandığı izah olunur.

TƏDQİQAT SUALI: **Təsvir nədir? Onu kim yaradır?**

Rəssamın hansı alət və materiallarla işlədiyini soruşan müəllim, şagirdlərə həmin materialların evdə olub-olmadığını yoxlamağı və ya əldə etməyi tövsiyə edə bilər. Müəllim işin düzgün təşkil olunması üçün şagirdləri qaydalarla tanış edə bilər:

- Parta arxasında düz otur, belini dik saxla, sinəni partaya söykəmə.
- Karandaşın lap ucundan tutma, onu bərk basma.
- İşıq vərəqə sol tərəfdən düşməlidir.
- Məşğələdən sonra karandaş və flomasterləri qələm qutusuna yığmağı unutma.

Dərsin ortasında müəllim şagirdlərlə **idman dəqiqələri** keçirə bilər. Bunu hər dərsdə təkrarlamaq olar. Şagirdlər hərəkətlər etdikcə tapmacanın da **"Şən karandaşa" aid** olduğunu tapırlar.

***Karandaşa aid tapmaca—idman.***

– Kağız üstə qaçıram, *(Barmaqlarla hərəkət)*
– Hər işi bacarıram: *(Yerində qaçış)*
– İstəsən – evcik çəkim, *(Pəncələr üzərində, qolları yuxarı qaldıraraq evin damını təsvir etmək)*
– İstəsən – qarlı küknar, *(Çömbəlmə-durma)*
– Yaxud çovğun və külək, *(Qolları qaldıraraq, sağ və sol istiqamətlərə əyərək, külək zamanı ağacları təsvir etmək).*
– Ağac çəkim, yoxsa bağ? *(Əllər beldə, ətraflara doğru dönmək)*
– Məni sevir hər uşaq! *(Yerində hoppanmaq)*

Müəllim şagirdlərə sərbəst iş zamanı istənilən mövzunu çəkməyi tapşıra bilər. Bəlkə, bu, parlaq günəş, ya da qeyri-adi çiçəklər ola bilər? Ən əsası — hər bir şagirdin çəkdiyini müzakirə etmək və onlardan sinif guşəsində kiçik sərgi düzəltmək məqsədəuyğun sayılır. Məşğələnin sonunda şagird rəsmin arxa hissəsində mütləq onun kimə aid olduğunu

göstərməlidir (şagird sadə karandaşla özü haqqında məlumat yazır: *ad və soyadı, təvəllüdü, yaşadığı şəhər və ya kəndin adı, oxuduğu məktəbin nömrəsi və sinfi)*. Rəsmin çəkilmə tarixi də unudulmamalıdır.




Şagirdlərin çoxu yazmağı bacarmırsa, bu halda müəllim onlara komәklik edir və ya əvvəlcədən hazırladığı kiçik vərəqədə yazdığı məlumatları şagirdlərə paylayır. Şagirdlər isə onu rəsmin arxasına yapışdırır. Rəsmlərin nümayişi üçün onlar yazı lövhəsinə bərkidilir. "Qalereya gəzintisi" üsulu ilə işlərlə ilkin tanışlıqdan sonra şagirdlər bu "əsərlər" haqqında öz fikirlərini bildirirlər. Müəllim mövzuya aid ümumiləşdirici suallarla sinfə müraciət edə bilər.

🙂 *Sağlamlıq imkanları məhdud olan şagirdlərə* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlana bilər. Bu mövzu diaqnostik xarakter daşıdığına görə, sadəcə, şagirdlərin bacarıq səviyyəsi yoxlanılır. Rəsmi rəngləmə və ya nöqtəli rəsmlə əvəz etmək olar.

**Yaradıcı tətbiqetmə.** Müxtəlif kitab və ensiklopediya, internet vasitəsilə qədim rəssam və onun təsvirləri haqqında məlumatlarla tanış olmaq.

**Qiymətləndirmə** aşağıdakı meyarlar üzrə aparıla bilər.

Meyarlar: *sadalama, təsviretmə, şərhetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əsas rəngləri sadalamaqda çətinlik çəkir. | Əsas rənglərin bir qismini tanıyır, rəngli karandaşların nümunəsində onları müəllimin köməyi ilə sadalayır. | Əsas rəngləri əsasən tanıyır, rəngli karandaşların nümunəsində onları kiçik səhvlərlə sadalayır. | Əsas rəngləri tanıyır, rəngli karandaşların nümunəsində onları düzgün sadalayır. |
| Sadə və rəngli karandaş, flomasterlərlə təsvirin yaradılmasında çətinlik çəkir. | Sadə və rəngli karandaş, flomasterlərlə istədiyi təsviri kiçik qüsurlarla yaradır. | Sadə və rəngli karandaş, flomasterlərlə təsviri müəllimin köməyi ilə yaradır. | Sadə və rəngli karandaş, flomasterlərlə istədiyi təsviri sərbəst yaradır. |
| Rəssamın yaratdığı təsvirləri, sadə şagird rəsmlərini və əşyaları çətinliklə şərh edir. | Rəssamın yaratdığı təsvirləri, sadə şagird rəsmlərini və əşyaları müəllimin köməyi ilə şərh edir. | Rəssamın yaratdığı təsvirləri, sadə şagird rəsmlərini və əşyaları kiçik səhvlərlə şərh edir. | Rəssamın yaratdığı təsvirləri, sadə şagird rəsmlərini və əşyaları ətraflı şərh edir. |

## 2. TƏSVİRLƏRDƏ FORMA

*— Fiqurların müxtəlifliyi —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi əşyaları formaya görə müqayisə etmək və onları fərqləndirmək bacarıqlarının formalaşdırılmasıdır. Müəllim uşaqlarla ünsiyyət zamanı sinifdə elə mühit yaratmağa çalışmalıdır ki, dərsi sərbəst oyun formasına çevirə bilsin. Bu metod uşağın forma haqqında təsəvvürlərinin və təxəyyülünün inkişafına kömək edir. Müəllim dərsdə müxtəlif forma və fiqurların bir-biri ilə müqayisəsini apararaq onlar arasındakı oxşar və fərqli cəhətləri yardımçı suallarla şagirdlərə izah etməklə onlardan istədiyi cavabı almalıdır. Bu isə şagirdlərdə müşahidə etmə və görmə bacarığını inkişaf etdirir.*

*Ətraf aləmdəki bütün cisimlər formaya malikdir. Əşyaların forması həndəsi fiqurlarda ümumi əksini tapmışdır. Həndəsi fiqurlar uşaqlar tərəfindən əşyaların formasını müəyyənləşdirən nümunə kimi qəbul olunur (top, alma, nəlbəki, təkər — dairəvi, yaylıq isə kvadrat formasındadır).*

Müəllim şagirdlərdən sadə əşyaların formasını necə tanıdıqları barədə müxtəlif əşyaları nümayiş etdirərək soruşa bilər: əşyaların hansı formanı xatırlatdığını, ətrafımızda bu formalarda daha nələr ola biləcəyini və s. Sonra şagirdlər dairəvi, üçbucaqlı və kvadrat formada olan əşyaları sayırlar.

TƏDQIQAT SUALI: **Əşyaları fiqurların köməyi ilə necə çəkmək olar?**

Şagirdlər tədqiqat işində ətrafda həndəsi formalarda nələr ola bildiyini fikirləşməklə yanaşı, olanları təsvir etməyə çalışmalıdırlar. Bu, əsasını fiqurlar təşkil edən sadə əşyalar ola bilər. Rəsmdən əvvəl, müəllimlə birgə *Venn diaqramı* vasitəsilə fiqurların oxşar və fərqli cəhətlərini müəyyən etmək əhəmiyyətlidir. Şagirdlər fiqurların fərqli xüsusiyyətlərini söyləyirlər. Müəllim fərqli xüsusiyyətləri olanları müvafiq dairədə, dairələrin kəsişməsində isə oxşarları qeyd edir. O, rəngli fiqur kəsiklərini şagirdlərə paylayır. Eyni rəngdə olanlar bir qrupa toplaşırlar. "Krallıq" adlandırılacaq beş qrup yaranır və müəllim

onlara“Fiqurlar krallığı” adlı nağıl danışır. İlk qrup işi olduğu üçün müəllim şagirdlərə qrupda işləmək qaydasını başa sala bilər.

**“Dairəvi krallıq”** qrupuna — dairəvi əşyaları, **“Kvadrat krallıq”** qrupuna — kvadrat əşyaları, **“Üçbucaq krallıq”** qrupuna — üçbucaq əşyaları, **“Düzbucaq krallıq”** qrupuna — düzbucaqlı əşyaları, **“Oval krallıq”** qrupuna isə oval formalı əşyaları çəkməyi tapşırır.



Müəllim şagirdlərə qrup fəaliyyətinini qiymətləndirilməsinin keçiriləcəyini xatırladır və yazı lövhəsində cədvəl asır (yaxud slaydlar vasitəsilə göstərə bilər).

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər üçün* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Tapşırığı həndəsi fiqurları və ya onlardan ibarət olan əşyaları rəngləmə və ya nöqtələr vasitəsilə çəkməklə əvəz edə bilər.

*Ən qədim məntiqi oyunlardan biri olan* ***tanqramı*** *faydalı nümunə hesab etmək olar. Tanqram kvadratın yeddi yerə — iki böyük, bir orta və iki kiçik üçbucaqdan, kvadrat və paraleloqrama bölünmüş hissələrindən ibarətdir. Oyunun mahiyyəti — mozaika üsulu ilə verilmiş elementlərdən müxtəlif fiqurlar yığmaqdır. Oyun obrazlı düşünməyə, təxəyyülün, həmçinin bütöv bir əşyanı vizual olaraq hissələrə bölmək bacarığının inkişafına yardım edir.*

*Bu oyun zamanı — ilkin çalışmalardan biri də* ***iki-üç elementlə fiqur yaratmaq tapşırığı****dır; məsələn: üçbucaqlardan kvadrat və trapesiya yaratmaq. Şagird tapmacanı həll edərkən istiqamətlərini müəyyənləşdirməlidir: bütün üçbucaqları saymalı, onları ölçüsünə görə müqayisə etməlidir. Sonra detalları bir-birinə yapışdıraraq nə alındığına baxmalıdır: göbələk, evcik, şam ağacı, lent, konfet... Tanqramın 7 elementini istifadə edərək ən sadə — dovşan fiqurundan başlamaqla düzəltmək olar.*



**İnteraktiv çalışma** zamanı oyun-tapşırıq. *Kvadratı* qurmaq üsulları: iki və ya dörd eyni üçbucaqdan, iki eyni düzbucaqlıdan, dörd eyni kvadratdan. *Üçbucağı* isə dörd eyni üçbucaqdan, iki eyni üçbucaqdan, kvadrat və üç eyni üçbucaqdan. Bunu misal kimi yazmaq şagirdlər üçün maraqlı olardı. Şagirdlər öz rəsmlərini nümayiş etdirirlər. Bunun üçün hər bir qrup əvvəlcədən müəllim tərəfindən lövhəyə yapışdırılmış “Krallıq” sözü altında öz rəsmlərini asır. Şagirdlər “Qalereya gəzintisi” vasitəsilə sinif yoldaşlarının işləri ilə tanış olur və hər bir “Krallıq” barədə öz fikirlərini bildirirlər. Müəllim — ətrafımızda çoxsaylı müxtəlif *formaya* malik əşyalar olduğunu bildirir: forma — əşyanın zahiri görünüşüdür, onun *yastı və həcmli ola bildiyini vurğulayır.*

**Yaradıcı tətbiqetmə**. Müxtəlif həndəsi fiqurlardan ibarət olan rəsm fikirləşib çəkmək.

**Qiymətləndirmə** müəllim tərəfindən aparılır, tədqiqatdan əvvəl meyarları işləyib hazırlayır. Nəticədə qruplar tərəfindən toplanan xallar sayılır. Hər bir “Krallıq” təyinatına görə uyğun fiqurlar üzrə xallar toplayır.

| “KRALLIQLAR” – QRUPLAR | | | | |
|---|---|---|---|---|
| I | II | III | IV | V |
|  |  |  |  |  |

Sonda hər qrup tərəfindən toplanmış fiqurlar sayılır və aşağıdakı meyarlarla ölçülə bilər:

*Sadə və rəngli karandaşlarla səth üzərində həndəsi fiqurlardan ibarət təsvir yaradır;*

*Müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir, fiqurları əşyalara çevirir, kiçik kompozisiyalar qurur;*

*Verilmiş sadə formalı həndəsi fiqurlardan ibarət təsvir və əşyaları şərh edir.*

## 3. MÜŞAHİDƏ və MÜQAYİSƏ EDİRƏM

*—Proporsiya və ölçü—*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu dərs müşahidəetmə, təhliletmə və görmə bacarıqlarının inkişafı üçün çox əhəmiyyətlidir. Şagirdin hiss edən və düşünməyi bacaran insan olması üçün ətrafdakı gözəlliyi görmək bacarığını tərbiyə etmək faydalı olardı. Adi insanların görə bilmədiklərini rəssamın gördüyünü vurğulamaqla müəllim şagirdlərə onun görmə və müşahidə bacarıqları haqqında məlumat verə bilər. Dərsin əsas məqsədi — şagirdə ətrafdakı varlıqları xırda incəliklərlə deyil, onun formasını bütöv olaraq görməyi öyrətməkdir. Bu isə onlar üçün rəsm və yapma zamanı çox vacib olan amillərdəndir. Ətrafdakı əşyaları müşahidə etmək, onları forma, rəng və ölçüyə görə müqayisə etmək isə şagirdlərdə əşyaları əlamətlərinə görə fərqləndirmək bacarıqlarının formalaşdırılmasını təmin edir. Müəllim dərsi ekskursiya və ya müşahidə formasında da təşkil edə bilər. Uşaqlar ətrafda olan əşyaları müqayisə edərkən onların "böyük-kiçik", "uzun-qısa", "hündür-alçaq", "çox-az" sözlərindən istifadə etmələri bu anlayışları mənimsəmələri üçün faydalıdır.*

***Yapma*** *— bədii yaradıcılıq növlərindən biridir. Şagird yalnız yaratdığını görməklə kifayətlənmir, həm də yapdığını əlinə götürür, toxunur və lazım gələndə dəyişir. Yapma zamanı əsas alət əl olduğu üçün bacarıq səviyyəsi qayçı, yaxud karandaşlarla deyil, əllə işləmək məharətindən asılı olur. Yapma texnikasını sərbəst mənimsəmək baxımından ən təbii və asan texnikalardan biri kimi qiymətləndirmək mümkündür. Digər təsviri sənət növləri kimi yapma da uşaqların estetik cəhətdən inkişafına səbəb olur. O, görməyi, hiss etməyi, qiymətləndirməyi və yaratmağı öyrədir.*

"Mövzuya giriş" şəkil üzərində qurulur, şagirdlərə hər gün məktəbə gedərkən yolda müşahidə etdiklərini söyləmək tapşırılır. Müşahidə və müqayisə etmək bacarıqlarını formalaşdırmaq məqsədilə müəllim şəkil üzrə yönəldici suallar verə bilər:

**"Hündür və alcaq binalar. Uzun və qısa yol. Böyük, orta və kiçik avtomobillər. Dairəvi və uzunsov formalı fənər və ağaclar. Dayanacaqdakı böyük və kiçik, hündür və alçaqboylu insanlar. Müxtəlif yaş qrupuna aid məktəblilər".**

Onlar gördüklərini müqayisə edərək fərqi söyləyirlər.



Müəllim payız meyvə, tərəvəz və giləmeyvələrinin şəkillərini və ya onları əyani nümayiş etdirir. Yönəldici suallarla onların rəngi, forması, ölçüsü haqqında soruşur və birlikdə Venn diaqramı vasitəsilə onları müqayisə edirlər.

Müəllim şagirdləri müxtəlif rəngli fiqurlar vasitəsilə qruplara ayırır. Şagirdlər qrupların rənginə uyğun olan meyvə, tərəvəz və giləmeyvələr yapmağa başlayırlar. Bu məşğələni müəllim"Məhsulların bir-biri ilə söhbəti"adlı oyuna da çevirə bilər.






| | |
|---|---|
| TƏDQİQAT SUALI: | **Plastilindən meyvə, tərəvəz və giləmeyvələri yapmaq üçün nələri bilmək lazımdır?** |

Yapma zamanı istifadə edəcəkləri materiallar və iş yerinin səliqəli saxlanılması üçün onları qaydalarla tanış edir.







1. *Plastilinlə plastik lövhə və ya müşəmbə üzərində işləyin.*
2. *Heykəltəraş çubuqlarını və əllərinizi əsgi parçası ilə silin.*
3. *Çubuqlarla ehtiyatla davranın.*
4. *İşi tamamladıqdan sonra iş yerinizi səliqəyə salın.*



İnteraktiv lövhədə iş zamanı dərsin motivasiya və tədqiqat mərhələsində müxtəlif rəngli meyvə, tərəvəz və giləmeyvələr haqqında animasiya, maraqlı təqdimat, proporsiya anlayışını başa salmaq üçün müqayisəli əşyalar göstərməklə şagirdlərin mövzu haqqında anlayışları möhkəmləndirilir. Yapma zamanı formanın qavranılması üçün lövhədə fiqurlar yerləşdirdikdən sonra şagirdlər növbə ilə stilus qələmi vasitəsilə onları meyvə və tərəvəzlərə bənzədə bilər. Müəllim şagirdlərə qiymətləndirmənin keçiriləcəyini xatırladır və onları meyarlarla tanış edir.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər üçün* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Şagird bu tapşırıqda, yəqin ki, hamı kimi yapmaq istəyəcək. Yapma zamanı bacardığı kimi ovucunun içində müxtəlif dairələr, ovallar düzəldə bilər. Bu da onun meyvə və ya tərəvəzi ola bilər, əsas odur ki, yapdığı formalar məhsulların öz rəngini əks etdirsin. Yapmanı məhsulların rənglənməsi ilə də əvəz etmək olar.

Şagirdlər öz yapma işlərini nümayiş etdirir, sinif yoldaşlarının işləri ilə tanış olur və öz rəylərini bildirirlər. Rəsmin yapmadan fərqi müzakirə olunur və belə nəticə çıxarılır: rəsmə yalnız öndən, yapılanlara isə hər tərəfdən baxmaq mümkündür. Həcmli formaya malik olan varlıqlara ***heykəltəraşlıq*** nümunələri deyilir. Onları yaradan insan isə ***heykəltəraş*** adlanır.

Qiymətləndirmə zamanı müəllim şagirdlərlə birlikdə qrupların fəaliyyətini qiymətləndirir. Bunun üçün müəllim əvvəlcədən meyarları hazırlayır. Nəticədə hər bir qrup tərəfindən toplanılmış ballar hesablanır. Hər rəngli fiqura müəllim tərəfindən müvafiq fiqur xal qazanaraq kimi verilir və toplanılır. Sonda hər bir qrup tərəfindən toplanılmış fiqurlar sayılır.

| QRUPLAR | | | | |
|---|---|---|---|---|
| I<br>“Sarı” | II<br>“Qırmızı” | III<br>“Bənövşəyi” | IV<br>“Narıncı” | V<br>“Yaşıl” |

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır:
*Təsviri sənətin əsas növlərindən olan heykəltəraşlıq haqqında bildiklərini nümayiş etdirir;*
*Əsas rəngləri tanıyır, meyvə, tərəvəz və giləmeyvələrin nümunəsində onları sadalayır;*
*Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma və ölçülərini müqayisə və şərh edir.*

Yapma işlərini sərgiləmək çox vacibdir. Yaxşı əl işlərinin hər zaman şagirdlərin gözləri önündə olması onlarda bir-birinin işinə hörmət tərbiyə edir və incəsənətə olan münasibəti daha da inkişaf etdirir.

Dərsin sonunda yapılmış meyvələri şagirdlər natura ilə müqayisə edirlər.

## 4. RƏSM NƏDƏN BAŞLAYIR?

*— Xətlərin müxtəlifliyi və xarakteri —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu dərsdə “xətt” və “fəza” anlayışlarını oyun vasitəsilə şagirdlərin diqqətinə çatdırmaq məqsədəuyğundur. Xəttin ifadəli xarakteri və onun müxtəlifliyi haqqında təsəvvürlərin formalaşdırılması şagirdlərdə təhliletmə və müqayisəetmə kimi idraki bacarıqların inkişafına yardım edir.*

*Keçən dərslərdə olduğu kimi, bu mövzunu da müəllimin şagirdlərin diqqətini təbiətdə olan xətt formalarına yönəltməsi əhəmiyyətli olar. Adətən, şagirdlər xəttin obrazını yaratmaqda çətinlik çəkirlər. Müəllim əsasını xətt təşkil edən təbiət mənzərələrini, yaxud rəssam əsərlərini nümayiş etdirməklə şagirdlərdə xəttin obrazı haqqında təsəvvürlərin formalaşdırılmasına yardım etmiş olur. Müəllim yaradıcı bacarığı və məharətindən istifadə edərək şagirdlərə xəttin rəsmdəki rolunu, onun xarakterini nağıl və oyunlar vasitəsilə çatdıra bilər. Əsasını xətt təşkil edən rəsmlərdə şagirdlər özləri, yaxud ailələrini, xəttin növündən asılı olaraq müxtəlif heyvan, quş və ya əşyaları təsvir edə bilərlər. Bu zaman xətlərin nəyə bənzədiyini, hansı obrazı ifadə etdiyini şagirdlərə başa salmaq faydalı olardı.*



Təbiətdə olan müxtəlif xətlərdən ibarət formaları nümayiş etdirməklə dərsi başlamaq məqsədəuyğundur. Burada şagirdlərin təbiətdə xəttin nəyi xatırladığını görə bilmələri çox vacibdir.



Təbiətdə müxtəlif xətlər mövcuddur: ilbizin çanağı spiralvari xətti, zebrin qara **zolaqları** qırıq xətlərə oxşayır. İlan **qıvrılarkən** və ya **burularkən** gövdəsindəki naxışlar daha yaraşıqlı görünür. Ağacların uca gövdəsi — **düz** xətti, ildırım çaxarkən onun hər tərəfə yayılan xətləri **ziqzaq** xətti xatırladır. Sonra müəllim yazı lövhəsində müxtəlif xətlər çəkərək şagirdlərə göstərir və birlikdə bu xətləri sadalayırlar: şaquli və üfüqi, maili, qapalı və düz, incə və qalın, qısa və uzun.

Bu mövzuda şagirdlərlə oyun keçirmək faydalı olardı. İnsanlar kimi, xətlərin də xasiyyətə malik olduğu şagirdlərə nümunələr əsasında izah edilə bilər; məsələn: "Tənbəl" xətt — yatmağı sevir. "Hoppanan" xətt isə, əksinə, kağız üzərində daim sıçramaqla məşğuldur. "Yumru", "düz" xətlər sakitliyi bildirir. "İti" və "kəskin" xətlər isə narahatlıq və qəzəb hissi oyadır.

TƏDQİQAT SUALI: **Xətlərin xarakterini necə göstərmək olar? Xətləri təsvir və ya bütöv bir rəsmə çevirmək üçün nə etmək lazımdır?**



Müəllim şagirdlərə karandaş və ya flomasterlə xəttin nəyə bənzədiyini çəkməyi tapşırır. Müxtəlif xətlər çəkilmiş rəngli kiçik kartoçkalar uşaqlar arasında paylanılır. Bu kartoçkalar bir neçə hissədən ibarətdir. Eyni rəngli hissələr və xətlər düşmüş şagirdlər bir qrupa toplaşırlar. Qrupun adını isə şagirdlər kartoçkanın birləşmiş hissələrində çəkilmiş xətt ilə müəyyən edəcəklər.

| | | |
|---|---|---|
| ***Sakit, mülayim xətt*** *(düz xətt)* | ***Sevincli, şən, xeyirxah xətt*** *(buruq, qıvraq, spiralvari)* | ***Hiyləgər xətt*** *(dalğalı xətt)* |
| ***Qəzəbli, dişli xətt*** *(sınıq ziqzaq)* | ***"Xəstə" xətt*** *(punktir)* | ***Tullanan xətt*** *(dalğalı xətt)* |

Xəttin xarakterini çəkmək üçün hər bir qrup bir anlığa özünü xətt kimi hiss etməlidir ki, onun xarakterini təyin etsin və göstərməyə çalışsın. Beləliklə, **oyun başlayır!**

— ***"Mülayim" xətt*** (müəllim səsini yavaşıdaraq xəttin obrazını canlandırmağa çalışır). Sakit, mülayim bir xətt... O, kağız üzərində asta-asta, səssizcə hərəkət edir. Bu xəttin xarakterini

hərəkətlə kim təsvir edə bilərsə, növbə ilə lövhə qarşısına çıxsın! Sizlərdən kiməsə sakit xətti göstərməyə növbə çatmasa, o zaman digər xətləri göstərər.

Qrup üzvlərindən biri oyuna başlayaraq bu xətti öz hərəkətləri ilə göstərir (müəllim bu cür təklifləri hər bir xətt növündən sonra edə bilər).

— ***"Şən və sevincli" xətt*** (müəllim artıq gümrah səslə danışır). İndi isə xətt şən və sevinclidir. Onu necə çəkə bilərik? Əlimizi necə hərəkət etdirək ki, çəkdiyimiz xətt şən alınsın? Şən əhvali-ruhiyyəniz bu işdə sizə yardım edəcək.

— ***"Hiyləgər" xətt.*** Növbəti çəkəcəyimiz xətt — "hiyləgər" xətdir. Gəlin bu xətti təsəvvür edək: o, kağız üzərində necə görünür? ***Bu, dalğalı xəttə*** bənzəyir...

— ***"Dişli — ziqzaq" xətt.*** Artıq bütün uşaqların çox sevdiyi —"ziqzaq" xəttin növbəsi gəlib çatdı (şagirdlər asanlıqla bu xətti təsvir edirlər).

— ***"Xəstə" xətt.*** Bu xətti hiss etmək çox vacibdir, çünki o, böyük əziyyətlə hərəkət edir və çətinliklə nəfəs alır.

— ***"Sıçrayan, tullanan" xətt.*** Nəticəni qəmli əhvali-ruhiyyədə bitirməmək üçün sıçrayan xətti təsvir edək.

İnteraktiv tapşırıq kimi şagirdlərdə maraq yaradan xətlər və rəng vasitəsilə müxtəlif varlıqların formalarını nümayiş etdirə bilər.

Hər qrup ona aid olan xətti əlini kağızdan ayırmadan çəksin. Çəkdiyinizi parta yoldaşınızın kağızı ilə dəyişin. Sonra xətti elə tamamlayın ki, nəticədə rəsm alınsın. Rəsmi müəyyən bir təsvir alınanadək tamamlamağa çalışın. Müəllim şagirdlərə qiymətləndirmənin keçiriləcəyini xatırladır və onları meyarlarla tanış edir.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər üçün* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Tapşırığı xətlər vasitəsilə çəkilmiş heyvan, ağac və s. rəngləmə və ya müxtəlif xətt növlərini davam etdirərək tamamlamağı tapşıra bilər.

Hər bir qrup xətlərin xarakterinə görə yaratdığı rəsmləri nümayiş etdirir. Qruplar əvvəlcədən müəllim tərəfindən yazı lövhəsinə çəkilmiş uyğun xətt altında öz rəsmlərini asır və başqa qrup üzvlərinin işləri ilə tanış olur.

**Yaradıcı tətbiqetmə.** A) Həyat hadisələrindən kiçik hekayə düşünərək xətt vasitəsilə təsvir etmək. B) Gəzinti zamanı ağacdan yerə düşmüş yarpaqları yığıb qurutmaq. Üstünə ağır əşya qoymaqla bir neçə gün saxlamaq və gələn dərsə gətirmək.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır:
*Sadə təsvir alətlərindən olan karandaş, qələm, flomasteri təyinatına görə istifadə edir;*
*Sadə bədii ifadə vasitələrindən olan xətt və cizginin istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir;*
*Müxtəlif növ xətlərdən sadə fiqurlar, əşyalar çəkir, kiçik kompozisiyalar qurur;*
*Çəkdikləri təsvirlərin real obrazlara uygunluğunu nümayiş etdirir.*

## 5. RƏSMİN TƏMƏLİ
*— Kompozisiya —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi şagirdlərdə payız yarpaqları vasitəsilə forma, ölçü və rəngi müqayisə etmək, ətraf aləmdə baş verən dəyişikliyi müşahidə etmək, vərəqdə kompozisiya haqqında ilkin bacarıqları formalaşdırmaqdır.*

*Bu fəaliyyəti müəllim müxtəlif üsullarla tətbiq edə bilər. Şagirdlərin gəzinti zamanı topladıqları payız yarpaqlarından canlıların kompozisiyasını düzəltmək olar. Rəngli kağızlardan kəsilmiş yarpaqları bir-biri ilə yanaşı yapışdırmaqla payız meşəsi və ən sadəsi — rəngli karandaşlarla payız yarpaqları çəkmək mümkündür. Aplikasiya texnikasında işləyərkən kollektiv yaradıcılıq daha məqsədəuyğundur. Bu halda hər bir şagird bir neçə yapraq kəsir və ümumi pannoda birləşdirirlər. Bu panno payız meşəsini də xatırlada bilər.*

Müəllim şagirdləri təbii material və işləmə qaydaları ilə tanış etmək üçün dərsə təbiətin, fəsillərin növbələşməsində baş verən dəyişikliklər, təbii materiallar haqqında suallarla başlaya bilər.

Yuxarı sinif şagirdlərinin işlərinin əyani və ya slaydlar vasitəsilə nümayişi zamanı, bunları düzəltmək üçün nələrdən istifadə edildiyini soruşmaqla təbii materialın yarpaq, budaq, toxum, gül ləçəklərindən ibarət olduğunu anlatmaq məqsədəuyğundur.

Kompozisiyanın nə demək olduğunu isə müəllim belə başa sala bilər: əşyanı çəkmək üçün onun formasını diqqətlə nəzərdən keçirmək və ölçüsünü müəyyənləşdirmək lazımdır.

Təsviri yaradarkən rəssam vərəqin bütün səthindən istifadə edir: obyektləri — adam və heyvanları, əşyaları bir-birinə nisbətən elə yerləşdirir ki, onlar sıx və ya həddindən artıq aralı olmasın. Vərəq üzərində əşyaların yerləşdirilməsi **kompozisiya** adlanır. Kompozisiya — rəssam üçün ən vacib sözdür. Müəllim bunu nümunə üzərində başa sala bilər; məsələn: hansı vərəqdə çiçəyin yerləşdirilməsi düzgündür? (4)



1. 2. 3. 4.

Sonra müəllim payız yarpaqlarının nə qədər rəngarəng olduğunu, onların hansı ağacda bitdiyini, forma və rəngi haqqında soruşur. Şagirdlər dərsə gətirdikləri müxtəlif yarpaqları formasına görə müqayisə edir, onların oxşar və fərqli cəhətlərini söyləyirlər*. Şagirdlər topladıqları təbii materialdan — müxtəlif formalarda olan payız yarpaqlarından kompozisiya qururlar. Onların ölçü və rənglərini nəzərə alaraq vərəqdə yerləşdirirlər.

**Qeyd.* Keçən dərsdə şagirdlərə gəzinti zamanı yerə düşmüş ağac yarpaqlarını toplamaq, onları bir qədər qurutduqdan sonra məktəbə gətirmək tapşırılmışdı.*

TƏDQİQAT SUALI: **Təsviri vərəq üzərində necə düzgün yerləşdirmək olar?**

Müəllim şagirdləri müxtəlif yarpaq növləri ilə 4 qrupa ayırır. Hər qrup yarpaqlardan müxtəlif kompozisiyalar düzəldir. Nümunə kimi aşağıda verilmiş canlıların kompozisiyalarından istifadə etmək olar.



| *1-ci qrup – quşları* | *2-ci qrup – heyvanları* | *3-cü qrup – həşəratları* | *4-cü qrup – balıqları* |
|---|---|---|---|
|  |  |  |  |

Müəllim şagirdlərə qrup fəaliyyətinin qiymətləndiriləcəyini bildirir.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər üçün* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Yarpaqlardan kompozisiyanı və ya sadəcə, müxtəlif payız yarpaqlarını rəngləmə və ya nöqtələr vasitəsilə çəkmək ilə əvəz etmək olar.

*Sağlamlıq imkanları məhdud olan şagirdlər* interaktiv lövhədə müəllimin əvvəlcədən yerləşdirdiyi süni yarpaq formalarından stilus qələmi vasitəsilə maraqlı kompozisiya qura bilərlər.

Qruplar yarpaqlardan düzəltdikləri kompozisiyaları yazı lövhəsinin qarşısına düzür və yaxud müvafiq yerdə sərgiləyir.

**Yaradıcı tətbiqetmə**. Payız yarpaqlarından günəş, insan, ağac kompozisiyası yaratmaq.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır:
*Yarpağın yapışdırılmasında sadə təsvir alətlərindən qayçı, yapışqandan istifadə edir;*
*Əsas rəngləri tanıyır, payız yarpaqlarının nümunəsində onları sadalayır;*
*Müxtəlif növ xətlərdən yarpağın formasını çəkir, yarpaqlardan kiçik kompozisiyalar qurur.*

## 6-7. RƏSM ÜÇÜN ÇƏRÇİVƏ

*— Həndəsi ornament: aplikasiya —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi — həndəsi ornament ilə tanışlıqdır. Bunu rəssam əsərlərinə gözəllik verən və onu tamamlayan çərçivələrin nümunəsində göstərməklə şagird rəsmlərini məktəb sərgiləri üçün necə tərtib etməyi öyrətmək çox faydalı olardı. Şagirdlərin yaş səviyyəsini nəzərə alaraq həndəsi ornamenti aplikasiya vasitəsilə yaratmaq zəruridir. Bunun üçün çərçivənin rolunu və onu necə düzəltməyi başa salmaq əhəmiyyətlidir.*

*Müəllim naxışların xətt vasitəsilə yarandığını bildirir. Rəssamların dekorativ sənətin məzmununu ətraf aləmdən götürdüklərini, gül və yarpaqların forma və rənglərini naturada olduğu kimi deyil, onların xarakterik xüsusiyyətlərini və quruluşunu saxlamaq şərti ilə özünəməxsus bir formada, daha da gözəlləşdirərək təsvir etdiklərini bildirir. Riyaziyyat dərsində tanış olduqları həndəsi fiqurları bir-biri ilə əlaqələndirmək, yanaşı çəkərək təkrarlamaq, çox gözəl həndəsi naxışlar yaratdıqlarını nümunələr əsasında göstərmək məsləhətdir.*

*Qeyd: mövzuya 2 saat ayrılmışdır. Birinci dərsdə şagirdlər həndəsi ornamentlərlə tanış olur, onların çəkilmə qaydalarını öyrənirlər. İkinci dərsdə isə həndəsi ornamentlərdən ibarət çərçivələr düzəldirlər.*

Müəllim şagirdlərə naxışların necə yarandığı haqqında suallarla müraciət edə bilər: “İlk naxışlara harada rast gəlmək olar? Qədim zamanlardan insanlar nə üçün yaşayış yeri, qab-qacaq və geyimlərini bəzəyərdilər?” Naxışların nədən ibarət olduğunu müzakirə edərək məlumat verə bilər: “Rəssam naxış çəkir, sonra onu bir neçə dəfə təkrar edir. Təkrarlanan naxışlar ***ornament*** adlanır. Fiqurlardan ibarət olan naxışlara ***həndəsi naxış*** deyilir”. Lövhədə və ya əşyalar üzərində həndəsi naxışları göstərməklə onlar arasında ümumi bir oxşarlıq olduğunu vurğulaya bilər. Onların hamısı bir xətt üzrə düzüldüyünü və bu ornamentlərə ***haşiyə*** deyildiyini söyləyir.






Naxış və ornamentləri yalnız karandaşla deyil, həm də rəngli kağız, yapışqan və qayçı vasitəsilə yaratmaq mümkündür. Karton üzərinə rəngli kağız kəsikləri yapışdırmaqla ***aplikasiya*** texnikasını yaratmaq olar. Rəssam tablosuna tamamlanmış görünüş verən çərçivələrin çoxu həndəsi naxışlardan ibarətdir.

Müəllim rəssam əsərlərinə baxarkən onların kvadrat və ya düzbucaqlı, bəzən də dairəvi və oval formada olduğunu bildirir. Əsərini tamamlayan rəssam onun üçün çərçivə düşünür, sonra da bu çərçivəyə onu yerləşdirir. Müəllim şagirdlərə aplikasiya texnikasında çərçivə hazırlayacaqlarını bildirir. Bu çərçivə kvadrat və ya düzbucaqlı formasında ola bilər.






TƏDQİQAT SUALI: **Rəngli kağızdan aplikasiya texnikası ilə çərçivə hazırlamaq və səthini həndəsi naxışlarla necə bəzəmək olar?**

Şagirdlər cütlüklərlə işləyirlər. *Birinci cütlük* çərçivəni — kvadrat, *ikinci cütlük* isə düzbucaqlı formasında hazırlayır. Rəngli kağızdan dörd ədəd uzun zolaq kəsilir, onları kvadrat və düzbucaqlı formasında, A3 formatlı rəsm vərəqinin kənarına yapışdırılır — çərçivə alınır. Şagirdlər çərçivənin üzərinə müxtəlif həndəsi fiqurlar yapışdırmaqla naxış və ornamentlərlə bəzəyirlər. Bu, ***dekorativ*** çərçivə adlanacaq. Həndəsi naxışlardan ibarət aplikasiya tərtib etmək üçün:




*1 ) rəngli kağızdan zolaqlar kəsmək;*

*2) onları əvvəlcə yarı, sonra dörd hissəyə bölmək;*
*3) üzərində fiqur çəkmək və kəsmək;*
*4) hazır fiqurları rəng və formaya əsasən kağız çərçivə üzərində düzgün yerləşdirmək və yapışdırmaq lazımdır.*





*Qeyd. Fiqurların qayçı ilə kəsilmə prosesi şagirdlərə bir qədər çətinlik yarada bilər. Bu zaman müəllim şagirdlərə qayçı ilə işləyərkən hansı təhlükəsizlik qaydalarına riayət etmələrini başa salmaq əhəmiyyətli olardı. Sağ əl ilə məntiqi hərəkətlərə yiyələnməli, həmin hərəkətlərlə kağızı tutmuş sol əlin fəaliyyətinə uyğunlaşdırmalı olduğunu müəllimin əyani nümayiş etdirməsi faydalıdır. Kəsmə prosesinin keyfiyyətinin hər iki əlin bir-biri ilə uyğun hərəkətdə olmasından asılı olduğunu, kağızın qalınlığı və qayçının kağıza münasibətinin də əsas rol oynadığını (qayçı kağızı əzmədən kəsməlidir) bildirməlidir. Buna görə də uşaqların iş zamanı üzləşdiyi çətinlikləri nəzərə alan müəllimin qayçı ilə düzgün işləmə qaydalarını başa salması yerinə düşərdi.*

Müxtəlif fiqurlardan naxışlar düzəltmək üçün müəllim şagirdlərə interaktiv lövhədə tapşırıq verə bilər. Şagirlər lövhəyə yaxınlaşaraq stilus qələmi vasitəsilə fiqurları bir-birinin yanına ardıcıl yerləşdirməklə bir neçə variantda müxtəlif naxışlar ala bilərlər. Fiqurların rəngini interaktiv lövhənin rənglər bölməsindən istifadə edərək rəngləyirlər.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər üçün* çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Bu dərsdə müəllim əvvəlcədən kəsilmiş fiqurlardan yapışqan vasitəsilə şagirdin bacardığı naxışı qurmağı və ya sadəcə, bir-birinin yanına rəngləri əvəz etməklə yapışdırmağı tapşıra bilər. Əgər bu tapşırıq da çətin görünsə, fiqurlardan naxışları rəngləməyi verə bilər.

Şagirdlər rəngli kağızdan hazırladıqları çərçivələri göstərirlər. Bunun üçün çərçivələri yazı lövhəsinin önünə düzürlər. Şagirdlər sinif yoldaşlarının işləri ilə tanış olur və müzakirə edirlər.

Müəllim dərsi ümumiləşdirərək şagirdlərə bildirir ki, çərçivə rəssam tablosunu tamamlayır, ona təmtəraqlı görkəm verir: “Çox zaman rəssamlar qiymətli qızılı rəngli çərçivələrdən də istifadə edirlər. Qədim zamanlarda insanlar dünya-aləm haqqında düşüncələrini ornament işarələri ilə ifadə edərdilər: düz xətt — torpağı, dalğalı xətt — suyu, çarpaz xətt — odu, dairə isə Günəş mənasını bildirirdi”.



*Torpaq* *Su* *Od* *Günəş*

**Yaradıcı tətbiqetmə.** Sinifdə düzəldilən çərçivəli A3 formatlı rəsm vərəqində ornament işarələrindən istifadə edərək rəsm fikirləşib çəkmək. Torpağı – düz xətlə, suyu – dalğalı, odu – çarpaz, Günəşi isə dairəvi formada göstərmək olar. Ətraf aləmi ifadə edən əlavə işarələrlə də tamamlamaq olar. Rəsmlərdən ibarət sərgi təşkil etmək olar.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır:
*Sadə təsvir alətlərindən olan karandaş, qayçı, yapışqanı təyinatına görə istifadə edir;*
*Müxtəlif növ rəngli kağızlardan sadə həndəsi fiqurlar kəsir, kəsilmiş hazır fiqurlardan kiçik naxış kompozisiyalarından ibarət çərçivə hazırlayır;*
*Verilmiş sadə formalı naxışlarla bəzədilmiş əşyaları şərh edir.*

## 8. RƏSSAM və MƏN
*— Yaradıcılıq qovluğu — portfolio —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *İbtidai təhsil pilləsində təlim və tərbiyənin əsas məsələlərindən biri — şagirdin fərdi yaradıcı bacarığının üzə çıxarılması və inkişafıdır. Hər bir şagirdin nailiyyətinin yüksəldilməsində, öz imkanlarına inamın*

*yaradılmasında, yaradıcı işlərin formalaşmasında, öz bacarıq və qabiliyyətinin üzə çıxarılmasında "Yaradıcılıq qovluğu"nun yaradılması zəruridir. Bu portfolionun üzəri, müxtəlif rəsm və dekorativ işlərin saxlanılması üçün, hər bir şagird tərəfindən fərdi və fərqli rəsmlərlə tərtib edilir. Həcmli işlərin fotoşəklini çəkməklə portfolioda saxlamaq olar.*

Müəllim şagirdlərə portfolionun nə olduğunu başa salmaq üçün rəssamların çəkdikləri rəsmlərin səliqəli və təmiz qalması üçün onları harada saxladıqları haqqında soruşur. O, rəssamların rəsmləri toplamaq üçün qovluqları olduğunu, hər bir şagirdin də çəkdiyi rəsmləri belə qovluqda saxlamaqlarını və onu birgə hazırlayacaqlarını bildirir.

TƏDQİQAT SUALI: **Yaradıcılıq qovluğunun digərlərinkindən fərqlənməsi üçün nə etmək lazımdır?**

Şagirdlər maraqlı bir şəkil çəkdikdən sonra onu qovluğun üzərinə yapışdırırlar: bu zaman qovluqları bir-birindən daha cəld və səhvsiz fərqləndirmək olar.

Şəkil çəkmək üçün müxtəlif materiallar var: sadə karandaş, diyircəkli qələm, rəngli karandaşlar və ya flomasterlər.




Bu materiallardan istifadə edərək vərəqdə sərbəst mövzuda istənilən təsviri yaradırlar. Rəsmi bəzəmək üçün ətrafında bir qədər təmiz yer saxlamaq lazımdır. Bu rəsm qovluqları bəzədiyi üçün onun maraqlı olmasına çalışmaq lazımdır.

Şagirdlər özlərini, ana və ya atalarını, dostlarını, maşın və oyuncaqlarını, gülləri, təbiəti, yaxud nağıllardan istənilən mövzunu çəkə bilərlər.

Rəsmi tamamladıqdan sonra iri hərflərlə vərəqin sağ küncündə şagirdlər öz adını yazır. Yazmağı bacaranlar rəsmin altında *soyadını, yaşını, təhsil aldığı məktəbi* qeyd edə bilər. Yazmağı bacarmayan uşaqlara müəllim tərəfindən köməklik edilə bilər. Şagirdlər qovluqlardakı rəsmi yazı lövhəsinə yaxınlaşaraq nümayiş etdirirlər. Sonradan müəllim həmin qovluqları toplayır və lazımi yerdə saxlayır.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Qovluğun üzərinə yapışdırmaq üçün istənilən rəngləmə vermək olar.

**Yaradıcı tətbiqetmə.** 8-ci dərsə üzərinə ağ vərəq yapışdırılmış (valideynlərin köməyi ilə) plastik materialdan olan "stəkan" gətirmək.




*8-ci dərsdə istifadə olunacaq materialın ardıcıllıqla hazırlanma qaydası*

**Qiymətləndirməni** aparmaq üçün müəllim şəxsi qeydlər vərəqi tərtib edir və şagirdlərdə aşağıdakı təlim nəticələrinə uyğun yoxlamaq istədiyi bacarıqları müəyyən edir:

*Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır;*
*Əsas rəngləri tanıyır, onları sadalayır;*
*Rəsmi səliqəli tərtib edə bilir.*

## “Rəssamın sehrli dünyası” vahidi üzrə ümumiləşdirici tapşırıqlar

1. **Gördüklərinin hansı təsvir adlanır?**


a. □


b. □


c. □

2. **Rəssamın istifadə etdiyi material və alətləri göstər.**

a. □ 

b. □  

c. □ 

3. **Dairəvi formada olan əşyaları göstər.**

a. □ 

b. □ 

c. □ 

4. **Xətlərdən hansı “torpaq” mənasını bildirir?**


a. □


b. □


c. □

5.  **Gördüyün naxış hansı xətt və fiqurdan ibarətdir?**


a. □


b. □


c. □

6. **Həndəsi ornamenti çəkərək tamamla və rənglə.**



7. **Həndəsi fiqurlardan ibarət öz ornamentini fikirləş və çək.**

— 2-ci vahid —

# SEHRLİ BOYALAR

MÖVZULARA DAİR DƏRS NÜMUNƏLƏRİ

## 9. ŞƏN QUAŞ

*— Əsas rənglər —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Məktəbəqədər dövrdə uşaqların əksəriyyəti boyalarla tanış olmuşdur. 1-ci sinifdə isə şagirdlərdə quaşla düzgün işləmək bacarığının formalaşdırılması çox əhəmiyyətlidir. Boyalarla iş xüsusi təşkilati bacarıqlar tələb etdiyinə görə şagirdlərə bir qədər gec təqdim olunur.*

*Şagirdlərə iş yerinin təşkilini (su bankasının və boyaların hansı tərəfdən qoyulması, bankadakı suyun miqdarı, boyaları açmaq və bağlamaq bacarığı, qapaqların hara qoyulması), palitradan, hansı fırçalardan və necə istifadə etməyi, onları necə yumağı, iş zamanı onların haradan qoyulmasını, boyaları bir-birinə qataraq çirkləndirməməyi və əsgi parçasının nə üçün lazım olduğunu başa salmaq məqsədəuyğun olardı.*

*Belə texniki və təşkilati bacarıqların məşq edilməsi şagirdlərin uyğun çətinliklərinin aradan qaldırılmasına yardım göstərir. Bu isə dərs zamanı şagirdlərin fikrinin əsas məqsəddən yayınmasının qarşısını alır. Belə bir işdə boyalarla məşğələ zamanı dərsin emosional keçməsi, bayram əhvali-ruhiyyəsinin yaradılması çox faydalıdır. Yeni boyaların görünüşü, qoxusu nəinki kiçikyaşlı uşaqlarda, hətta rəssamlarda belə həyəcan hisləri oyadır. Hər bir boyanın rəngi və qoxusu nəyisə xatırladır. Uşaqlar boyaların yaratdığı assosiasiyalar barədə məmnuniyyətlə söhbət edirlər. Çünki bu onların həyat tərzinə çox uyğun gəlir.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərə quaşın xüsusiyyətləri və işləmə qaydaları ilə tanış etmək üçün suallar verir:

– Şəkillərdə nə görürsünüz? *(boyalar).*

– Kim bilir: bu boyalar necə adlanır? *(fərziyyələr).*

– Rəssamların istifadə etdiyi bu boyalar ***quaş*** adlanır. Quaş qatı boyadır, iş zamanı boyadan çox, sudan az istifadə edilir. Bu boyaların şəffaflığı yoxdur, örtücü xüsusiyyətə malikdir.

– Şəkildə gördüyünüz 3 quaş qabında hansı rənglər var? *(qırmızı, sarı, göy)*

– Qırmızı, sarı, göy rənglərə ***əsas rənglər*** deyilir. Bu, rəssamın istifadə etdiyi əsas rənglərdir. Qırmızı, sarı, göy ona görə əsas rəng adlanır ki, bu rəngləri heç bir rənglərdən almaq mümkün deyil. Onların qarışığından isə istənilən rəng çalarları almaq olur.



*Quaş boyalar*



*Fırçalar*



*Əsas rənglər*



*Su bankası*

TƏDQİQAT SUALI: **Quaşla necə işləmək olar? İş zamanı nəyi nəzərə almaq lazımdır?**

**Tədqiqatın aparılması.** Dərsdə ən sadə tapşırıq — quaşla tanış olmaqdır. Uşaqların çoxu, sadəcə, vərəqi rəngləməklə, bəziləri isə rəngbərəng zolaqlı xalça çəkməklə tapşırığı yerinə yetirə bilər. Bu xalçanı ağ vərəq yapışdırılmış, fırça və karandaşları yığmaq üçün qab üzərində də çəkmək olar (şagirdlər əvvəlcədən evdən gətirirlər). Onun üzərini quaşla boyayırlar.



Boyalarla iş zamanı vərəq və alətlər parta üzərində rahat yerləşdirilməlidir. Vərəqi – qarşıda, boya və su bankasını vərəqin yuxarı və sağ hissəsindən qoymaq lazımdır. Fırçaları istifadə etmədikdə isə su bankasında tükləri yuxarı istiqamətdə saxlamaq lazımdır ki, korlanmasın.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Şagird fırça ilə işləməyə hazır deyilsə, zolaqlı xalçaya aid rəngləmə təklif etmək olar.

İnteraktiv tapşırıq kimi lövhədə müxtəlif rənglərdə olan əşya təsvirləri verilir, ortada isə üç rəngsiz ləkə — bu, əsas rənglər sayılacaq. Şagird öncə bunların hansı rənglər olduğunu müəllimin verdiyi suala cavab tapmaqla müəyyən edir. Sonra isə bu rənglərə uyğun gələn əşyalar taparaq stilus qələmi ilə ətrafına yığır (məsələn: qırmızı — nar, alma, pomidor və s.)

**Məlumat mübadiləsi.** Şagirdlər işlərini təqdim edirlər.

**Ümumiləşdirmə və nəticə.** Quaşdan istifadə edərkən hansı qaydalara əməl etdiniz?

– Əsas rənglər hansılardır? Onlara nə üçün əsas rənglər deyilir?

– Rəssamlar müxtəlif materiallarla işləyir. Yalnız boyalarla təsvir edilən əsərlərə ***rəngkarlıq*** nümunələri, rəssama isə ***rəngkar-rəssam*** deyilir.

**Yaradıcı tətbiqetmə.** Ətrafda sarı, qırmızı, göy rənglərdə mövcud olanları təsvir etmək.

**Qiymətləndirmə.** I dərsdəki nümunəyə uyğun olaraq təlim nəticələri üzrə aparılır.

## 10. FIRÇA NƏYİ BACARIR?

*— Nəbati ornament —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu dərsdə fırçanın işləmə üsulları ilə tanışlıq şagirdlərdə ilkin bacarıqların təkmilləşdirilməsini formalaşdırır. Bu bacarıqlar dekorativ-tətbiqi sənət nümunələrindən olan milli geyimlərlə, onları bəzəyən nəbati ornamentlərlə tanışlıq əsasında inkişaf edir. Nəbati ornamentin təbiət formalarından yarandığı və həndəsi ornamentdən fərqi izah edilir, onlara harada rast gəlindiyi müzakirə olunur. Bütün sənət növləri kimi dekorativ-tətbiqi sənət də şagirdlərdə gözəllik haqqında anlayışları inkişaf etdirir, bu gözəlliyi yaradan insan əməyinə hörmət hissini tərbiyə edir.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim yazı lövhəsindən fırçanın müxtəlif üsullarla işlənmiş naxış təsvirləri asır və soruşur:

– Təsvirlərdə nə görürsünüz? *(naxışlar)*

– Naxışlarda nələr təsvir olunub? *(gül, yarpaq, xətlər, nöqtələr)*

– Bu naxışlar nə ilə işlənilib? *(fırça və boya ilə)*

– Gül, yarpaq, budaq və xətlərdən – bir sözlə, təbiət formalarından ibarət olan naxışlar ***nəbati*** adlanır. Naxışlara harada rast gəlmək olar? (*xalça, süfrə, geyim və s.-də).*

Bu gün siz fırçanın basma və nöqtələmə texnikası ilə naxış yaradacaqsınız.

TƏDQİQAT SUALI: **Fırça ilə nəbati naxışı necə yaratmaq olar?**

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri müxtəlif fırça növləri ilə tanış edir və onların 2 cür – ***yumru və düz*** olduğunu bildirir. Yumru fırçanın ucu – şiş, iti, tükləri isə təbii heyvan tükündən (at, dələ) olduğu üçün çox yumşaqdır. Düz fırçanın ucu isə düz, tükləri isə sərt və cod olur.




Müəllim şagirdləri fırçanın işləmə üsullarına görə 3 qrupa ayırır. 1-ci qrup – basma, 2-ci qrup – nöqtələmə, 3-cü qrup isə basma və nöqtələmə üsulları ilə milli geyimlərin üzərində nəbati naxış yaradır. Keçilən xətt növlərindən də istifadə etmək məqsədəuyğun olardı. Müəllim hər xalqın milli naxışlarının, bəzək elementlərinin onun geyimlərində daha çox əks olunduğunu qeyd edə bilər. Milli geyimlərdə naxışlar, adətən, sinə, qol və geyimin aşagı – ayaq hissəsini bəzəyir. Lakin parçanın bəzəyindən asılı olaraq geyimin bir çox yerində naxışlar görmək mümkündür.





Müəllim qrup fəaliyyətinin qiymətləndiriləcəyinin aparılacağını xatırladır və meyarlar yazı lövhəsindən asılır.



Nəbati ornamenti təsvir etmək üçün fırça ilə ayrı-ayrı elementləri məşq etmək məqsədəuyğun olardı.




*Yaxmanın istiqamətləri*



*Naxış nümunələri*



*Düz fırçalar*



*Yumru fırçalar*





*"Basma, nöqtələmə" üsulu ilə bəzədilmiş geyim nümunələri*

☺ Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Fırça ilə çəkilən nəbati naxışları rəsm, naxışlara və ya milli geyimlərə dair rəngləmə ilə əvəz etmək olar.

**Məlumatın mübadiləsi.** Qruplar işlərini yazı lövhəsinin qarşısından düzürlər. "Qalereya gəzintisi" vasitəsilə şagirdlər hər qrupun geyim nümunələrini bəzəyən naxışlara baxır və rəylərini söyləyir.

**Ümumiləşdirmə və nəticə.** Fırçanın hansı işləmə üsulları var? Bu üsulla daha nə çəkmək olar?

**Yaradıcı tətbiqetmə.** Xalçanın üzərini fırçanın işləmə üsulları ilə naxışlarla bəzəmək.

**Qiymətləndirmə.** Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Sonda qrupların nail olduğu nəticələr hesablanır.

| **Qruplar** | **MEYARLAR** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Fırça ilə naxışlar tam və uyğun yerinə yetirilib | Geyimlərin üzərindəki nəbati ornamentlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |

## 11. İNCƏ AKVAREL

*— Qarışıq rənglər —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin məqsədi – akvarel boyaları ilə tanışlıq, onun xüsusiyyəti, işləmə qaydaları, fırça və sudan istifadəsi, rənglərin bir-biri ilə qarışdırılma bacarıqlarının formalaşdırılmasıdır. 1-ci sinifdə rənglərin bir-biri ilə qarışdırılması və müxtəlif çalarların alınması əsas məqsəd daşımır. Bu yaşda olan uşaqlar, sadəcə, boyalarla çəkir və rəngləyirlər. Rəng mühiti isə tədricən yuxarı sinifdə öz əksini tapacaq.*

*Təbiət hadisələrindən olan göy qurşağını təsvir etmək üçün şagirdlər ilk növbədə onun hansı rənglərdən ibarət olduğunu müəyyən etməlidir. Bu mərhələdən sonra isə qarışıq rəngləri necə almaq mümkün olduğunu da bilmək yerinə düşərdi.*

*Dərsdə akvarel və quaş boyaların oxşar və fərqli cəhətlərinin müqayisə edilməsi, onların xüsusiyyətləri haqqında yeni məlumatların verilməsi uşaqlar üçün çox faydalı ola bilərdi. Müəllimin bunu şagirdlərə oyun və ya nağıl formasında çatdırması çox əhəmiyyətlidir.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim əyani olaraq hər bir boya (akvarel və quaş) ilə işlənmiş şagird işlərinin nümayişi zamanı onların fərqini müəyyən etmək məqsədilə sinfə müraciətlə soruşur:

– Gördüyünüz boyaların adını bilirsinizmi? *(quaş və akvarel).*

– Quaş ilə tanışlığınız oldu, bəs akvarel haqqında nə deyə bilərsiniz? Onların oxşar və fərqli cəhətlərini bilirsiniz? *(fərziyyələr).*

Müəllim akvarel və quaşın mübahisəsi haqqında **nağıl** danışır:

*– Biri var idi, biri yox idi. Rəssamın emalatxanasında Akvarel ilə Quaş yaşayırdı. Onlar bir-birindən küsmüşdülər. Boyalardan hər biri belə fikirləşirdi ki, onlar bütün boyalardan ən vacibi və ən yaxşısıdır. İncə və zərif Akvarel, qatı və boğuq Quaşa sübut etmək istəyirdi ki, o çox incə, yüngül və rəngarəngdir. Rəssam boyaların mübahisəsini eşidib belə qərara gəldi ki, hər iki boyadan istifadə etməklə iki rəsm çəksin. O, ağ kağızda fırçanı hərəkət etdirərkən bir rəngin o biri rəngə keçdikdə necə gözəl göründüyünün şahidi olurdu. Rəssam hər bir boya ilə iki gözəl mənzərə rəsmi çəkdi. Boyalar bu rəsmlərə heyranlıqla baxırdılar və belə qərara gəldilər ki, hər bir boya özünə görə çox yaxşıdır, hər biri rəssam üçün vacibdir. Bu gündən sonra Akvarel ilə Quaş bir-biri ilə dost oldular.*







– *Akvarel* – zəif, parıltılı sulu boyadır. O qədər şəffafdır ki, rəngləyərkən vərəqin ağlığı görünür, çünki tərkibində su var. Akvarel ilə iş zamanı yumşaq və yumru fırçalardan istifadə edirlər. Əsas rəngləri bir-biri ilə qarışdırdıqda, müxtəlif rənglər almaq olar. Rəngi almaq üçün ***palitra*** üzərində boyaları qarışdırmaq lazımdır.

– Necə fikirləşirsiniz, rəssam hansı təbiət hadisəsini təsvir etmişdi? Bu nə zaman baş verir? (*göy qurşağını; yazın sonunda və yay fəslinin əvvəlində, yağış yağandan sonra*)

– Düzdür, yağış və günəş bir-biri ilə "görüşərkən" səmada rəngarəng göy qurşağı əmələ gəlir.

–

| |
|---|
| TƏDQİQAT SUALI: **Qarışıq rənglər necə alınır?**<br>**Akvarel ilə göy qurşağını necə təsvir etmək olar?** |

**Tədqiqatın aparılması.** Şagirdlər əvvəlcə əsas rəngləri bir-biri ilə qarışdıraraq qarışıq rənglər alırlar: *sarı ilə qırmızı – narıncı, sarı ilə göy – yaşıl, qırmızı ilə göy – bənövşəyi.* Alınan rənglərə ***qarışıq rənglər*** deyilir. Rəngləri qarışdırmaq çox maraqlı və əyləncəlidir. Şagirdlər istənilən boyaları bir-biri ilə qarışdırmaqla tamamilə yeni, müxtəlif rənglər ala bilərlər.



*əsas rənglər*




*Əsas rənglərdən qarışıq rənglərin alınması*



*qarışıq rənglər*



*Quaş və akvarel texnikası*

Müəllim göy qurşağı haqqında suallarla şagirdlərə müraciət edə bilər:

– Onun neçə rəngi var? Bu rənglər hansı ardıcıllıqla yerləşir?

– Əgər boyalarda qarışıq rənglər yoxdursa, onları necə almaq olar?

Sonra şagirdlərə A3 formatlı rəsm vərəqində göy qurşağını çəkməyi tapşırır.

Onların sərbəst işi zamanı müəllim yaxınlaşıb istiqamət verir. Müəllim dərəcələr üzrə qiymətləndirmə aparacağı haqqında məlumat verir və meyarları yazı lövhəsindən asır.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Bu şagirdlər, rəngli karandaşlarla müəllimin hazırladığı mənzərə təsvirini rəngləyə bilər.

İnteraktiv tapşırıq kimi müəllim lövhənin yuxarı hissəsində əsas və qarışıq rəngləri, aşağıda isə rəngsiz göy qurşağının təsvirini yerləşdirir. Şagirdlər göy qurşağındakı əsas rəngləri lövhənin rəng palitrasından istifadə edərək rəngləyir. Qarışıq rənglərin tərkibini isə əvvəlcə müəyyən edir, sonra göy qurşağında göstərirlər.

**Məlumat mübadiləsi.** Şagirdlər işləri asır və münasibət bildirirlər.

**Ümumiləşdirmə və nəticə.** Akvarel ilə çəkdiyiniz təsvirlərdə hansı fərqi hiss etdiniz?

– Bənövşəyi, yaşıl və narıncı rənglər necə alınır? Bu rənglər necə adlanır?

– Qarışıq rənglərlə əsas rənglər arasında fərq nədir?

**Yaradıcı tətbiqetmə.** Ətrafda narıncı, yaşıl və bənövşəyi rənglərdə mövcud olanları təsvir etmək.

**Qiymətləndirmə.** I dərsdəki nümunəyə uyğun olaraq təlim nəticələri üzrə aparılır.

## 12. BOYALARDA SƏSLƏNƏN MUSİQİ

*— Musiqi dinləyir və ovqatı təsvir edirik —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu mövzu boyalarla işin bir növ ümumiləşdirilməsi sayıla bilər. Dərsin əsas mahiyyəti kiçikyaşlı şagirdlərə nəinki gördükləri əşyalar aləmini, həm də görünməyən hisləri rənglər vasitəsilə təsvir etmək olduğunu başa salmaqdır. Bu, hər hansı bir rəsm və ya vərəq üzərində, sadəcə, forması müəyyən edilməyən rəngli ləkələr ola bilər.*

*Əgər şagird rəsm çəkmiş olarsa, o, əlbəttə ki, gülən və ya ağlayanı, onun üçün ən əziz olan heyvan, oyuncaq və ya anasını çəkə bilər. Bunun özü də tapşırığa yaradıcı yanaşmadır – uşaq öz daxili əhvalını təsvir edir. Müəllim tərəfindən şagirdlərin təsvirlərini müzakirə etmək məqsədəuyğun olardı. Şagirdlər bir-birinin rəsmini necə başa düşür? Orada hansı hislərin ifadə olunduğu aydındırmı? Bunun nə olduğu aydın bilinirmi? Hansı rənglərə üstünlük verilmişdir?”.*

*Rənglər də musiqi kimi şən və qəmli ola bilər. Bu dərsin mənalı məzmununu musiqi və musiqi obrazları təşkil edir. Şagirdlər dərsdə dinlənilən musiqinin şən və ya qəmli olmasını və ona uyğun*

*rəngləri müəyyən etməklə boyalarda səslənən musiqini yaratmış olurlar. Rəsmlərin yalnız"yaxşı— pis" olması istiqamətində müzakirə aparılmamalıdır, burada hansı əhvali-ruhiyyənin təsvir edilməsi, kimdə sevincin "ən sevincli" olmağını müəyyən etmək tövsiyə olunur.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərlə birgə ətrafdakılardan nəyin təsvir etmək mümkün olduğunu və nəyin mümkün olmadığını müəyyən etmək üçün suallara cavab tapmağa çalışırlar:

– Əşyaları, heyvanları, insanları, hadisələri təsvir etmək mümkündür, lakin sevinc və kədəri necə təsvir etmək olar?

– Sevinc dedikdə nə başa düşürsünüz? O nəyə bənzəyir? *(fərziyyələr, əlvan ləkələrə, atəşfəşanlığa, əlvan gül-çiçəklərə və s.)*

– Vərəqdə sevinci necə yerləşdirərdiniz? Hansı hissəsində? Bəlkə, elə bütün vərəqdə?

– *Kədər necə olur? Onu hansı rənglərlə ifadə edərdiniz?(fərziyyələr, boz, qara və s.)*

Müəllim şən və həzin musiqi seçir. Növbə ilə musiqiləri səsləndirir və soruşur:

– Musiqilər bir-birindən nə ilə fərqlənirdi? Onların hər biri sizdə hansı hisləri oyadır? *(fərziyyələr)*. – Şən musiqini hansı rənglərlə ifadə edə bilərsiniz? *(fərziyyələr, şən və əlvan rənglərlə – qırmızı, sarı, narıncı və s.)*. Bəs həzin musiqini? *(fərziyyələr, sakit rənglərlə – yaşıl, mavi, boz, çəhrayı və s.)*

> TƏDQİQAT SUALI: **Ətrafda görünməyənləri necə təsvir etmək olar? Bunun üçün hansı rənglərdən istifadə etmək lazımdır?**

**Tədqiqatın aparılması.** Müəllimin səsləndirdiyi musiqinin nəyi ifadə etdiyini, hansı rənglərdən istifadə olunacağını şagirdlər fərdi şəkildə müəyyən edərək çəkirlər. Musiqidən asılı olaraq bu, təbiət, portret və ya ən adi ləkələr də ola bilər. Burada əsas — rəngin musiqiyə uyğun gəlməsidir. Müəllim şagirdlərin sərbəst işi zamanı yaxınlaşır və istiqamət verir. O, fərdi özünüqiymətləndirmə cədvəlindən istifadə edəcəyini bildirir və meyarları yazı lövhəsindən asır.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Bu, istənilən rəngləmə və ya nöqtələr vasitəsilə yaradılan rəsm ola bilər.

İnteraktiv tapşırıq kimi lövhədə iri çəkilmiş notlar vermək, onların sayına görə müxtəlif janrda musiqi nömrələrindən parçalar səsləndirmək olar. Şagirdlər bu parçalara qulaq asır, onların hansı əhvali-ruhiyyədə olduğunu müəyyənləşdirir və lövhənin panelindəki rəng palitrasından istifadə edərək uyğun rənglə notları rəngləyir.

**Məlumat mübadiləsi**. Şagirdlər rəsmlərini yazı lövhəsinin qarşısına düzürlər və "qalereya gəzintisi" keçirilir. Bu zaman onlar bir-birinə suallar verməklə yanaşı, rəsmləri müzakirə etməklə öz fikirlərini bildirirlər. Müəllim şərait yaratmalıdır ki, onlar hislərini yoldaşları ilə bölüşsünlər.

**Ümumiləşdirmə və nəticə.** Ən çox hansı rənglərdən istifadə etdiniz? Niyə? Hansı Azərbaycan bəstəkarlarını tanıyırsınız? Onların musiqisini dinləmisinizmi?

**Yaradıcı tətbiqetmə**. Azərbaycan musiqisini dinləmək və ona aid rəsm çəkmək

**Qiymətləndirmə.** I dərsdəki nümunəyə uyğun olaraq təlim nəticələri üzrə, yaxud fərdi özünüqiymətləndirmə cədvəlindən istifadə etməklə aparıla bilər.

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1 | Çəkdiyim təsvir dinlədiyim musiqiyə uyğundur? | | | | |
| 2 | Təsvirdə əsas və qarışıq rənglərdən istifadə etmişəm? | | | | |
| 3 | Fırçadan istifadə edərək rəsmi necə təsvir etmişəm? | | | | |
| 4 | Yoldaşlarımın işlərinə öz münasibətimi bildirə bilmişəm? | | | | |
| 5 | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirə bilmişəm? | | | | |

## “Sehrli boyalar” vahidi üzrə ümumiləşdirici tapşırıqlar

1. **Quaş boyasını qeyd et.**

a. □   b. □   c. □ 

2. **Əsas rəngləri qeyd et.**



□ □ □ □ □ □ □ □ □

3. **Fırça izini qeyd et.**

a. □   b. □   c. □ 

4. **Hansı iki əsas rəngin qarışığından narıncı rəng alınar? Dairələri rənglə.**



5. **Göy qurşağını tamamla və rənglə.**



6. **Rəsmləri rənglə.**



7. **Ətrafında verilmiş rənglərdə nələr ola bilər? Fikirləş və çək.**




| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | | | | |

# I yarımil üzrə ümumiləşdirici tapşırıqlar

**1. Akvarel boyanı qeyd et.**

a. □  b. □  c. □ 

**2. Yapma zamanı istifadə etdiyin alət və materialı qeyd et.**

a. □  b. □  c. □ 

**3. Hansı iki əsas rəngin qarışığından yaşıl rəng alınar? Dairələri rənglə.**



**4. Buruq xətti çəkməkdə davam et.**



**5. Buludları hava şəraitinə uyğun rənglə.**



Sakit



Qəmgin



Şən



Həyəcanlı

**6. Çərçivələrin forması hansı fiquru xatırladır? Onları çək və hər birini əşyaya çevirməyə çalış.**

   

**7. Fırçanın hərəkətini müşahidə et. Ardını isə özün düşün və tamamla.**



## — 3-cü vahid —
# SİRLİ TƏBİƏT

MÖVZULARA DAİR DƏRS NÜMUNƏLƏRİ

### 13. HƏŞƏRATLARI BƏZƏYİRİK
*— Monotipiya —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin məqsədi — müşahidə etməyi öyrətmək, estetik təəssüratlardan təcrübə qazanmaq və təsviri yaradıcılıqda yeni bacarıqları formalaşdırmaqdır. Müəllim təbiətin gözəllikləri haqqında söhbət etməklə, müşahidə olunan naxış, ritm, forma haqqında məlumatları şagirdlərə çatdırmaqla, onlarda emosional və estetik hisləri tərbiyə etmiş olur. Uşaqlar yeniliyə çox sevinirlər, gözəlliyə isə heyranlıqla baxırlar. Dərsdə məhz bu praktik işin köməyi ilə asılan işlərdən ibarət pannoya baxarkən sinifdə yay, təbiət, gözəllik əhvali-ruhiyyəsinin yaranmasında müəllimin yanaşması böyük rol oynayır. Kəpənəyi çəkmək üçün şagirdlərə simmetriya anlayışını öyrətmək tezdir. Bunu quaş ilə çəkilmiş rəngli ləkələr vasitəsilə monotipiya texnikasında göstərmək məqsədəuyğundur. Şagirdlərlə kəpənəyin rəng uyğunluğunu, qanadlarında incə naxışların yerləşməsini müzakirə etmək müəllimə tövsiyə olunur.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərə müxtəlif səthlərin şəkillərini göstərir: ağacın gövdəsi, ilanın, zürafənin dərisi, balıqqulağı, kəpənəyin qanadları.



– Şəkillərdə nələri görürsünüz? *(ağac gövdəsi, ilanın dərisi, balıqqulağı, kəpənək)*

– Bunların oxşar cəhətləri nədir? *(üzərində zolaqlar, xallar, naxışlar var)*

– Ətraf aləm cəlbedici naxışlarla zəngindir. Təbiətdə naxışlarla zəngin bir gözəl də var. O, çəmənlikdə, gül-çiçəklər arasında uçur. O nədir? *(kəpənək)*

| TƏDQİQAT SUALI: **Boyalarla kəpənəyi necə təsvir etmək olar?** |
|---|

**Tədqiqatın aparılması**

– Bu gün siz kəpənək çəkəcəksiniz. Onu təsvir etmək üçün müxtəlif naxışlar fikirləşmək lazımdır ki, hər birinizdə fərqli olsun. 1-ci qrup kəpənəyi xətlərlə, zolaqlarla; 2-ci qrup nöqtələrlə; 3-cü qrup kiçik ləkələrlə; 4-cü qrup iri ləkələrlə; 5-ci qrup isə, sadəcə, müxtəlif rənglərin qarışığı ilə bəzəsin. Bu tapşırığı monotipiya üsulunda həll etmək daha asan və maraqlı olacaq. Bilirsiniz monotipiya nədir? Monotipiya əks təsvir deməkdir: vərəqi 2 hissəyə qatlayırsınız. Açdıqdan sonra bir tərəfində istədiyiniz kimi boyaların müxtəlif rəngləri ilə bir neçə ləkə, xətt və nöqtə çəkirsiniz. Sonra həmin vərəqin hissələrini bir-biri ilə tutuşdurub yenidən qatlayırsınız ki, onlar üst-üstə düşsün. Qatladıqdan sonra əllərinizlə üstündən basırsınız. Açdıqda əvvəlkindən fərqli izlər qalacaq.



Naxışlarını isə xətlər, iri və kiçik ləkələr, nöqtələrlə fırçanın köməyi ilə qoya bilərsiniz. İşlər quruduqdan sonra uşaqlar flomasterlərlə kəpənəyin gözlərini, buynuzlarını da çəkirlər. Qruplara xəbərdarlıq edilir ki, qrup fəaliyyəti qiymətləndiriləcək.



***Qeyd.*** *Müəllim kəpənəyi parabüzən, hörümçək və digər həşəratlarla əvəz edə bilər.*

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Kəpənək, parabüzən və ya cırcırama rəngləməsi üzərində şagird bacardığı naxışı vuraraq rəngləyə bilər.

Müəllim lövhədə müxtəlif forma və naxışlarla zəngin kəpənək şəkilləri və ya onları canlı şəkildə nümayiş etdirmək üçün kiçik videoçarx nümunəsi hazırlasa, sinifdə canlı və şən əhvali-ruhiyyə yaratmış olar və yaradıcılığa müsbət təsir göstərər.

**Məlumat mübadiləsi.** Qrup üzvləri monotipiya üsulu ilə yaratdıqları kəpənəkləri təqdim etmək üçün lövhənin qarşısına düzürlər. Müəllim isə sinif guşəsindən onları asaraq "Çəmənlik üzərində kəpənəklər" adlı panno yaradır. Təriflər, suallar və təkliflər üsulu ilə müzakirə edirlər.

**Ümumiləşdirmə və nəticə.** Kəpənəyi yaratmaq üçün nə etdiniz?

– Təbiətin yaratdığı canlıların hansının bəzəyi sizin xoşunuza gəlir?

– Monotipiya ilə işləmənin hansı üstünlükləri var? – Bu üsulla daha nələri çəkmək olar?

**Yaradıcı tətbiqetmə.** Monotipiya texnikasında meşənin təsvirini yaratmaq.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

| **Qruplar** | **Meyarlar** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Monotipiya necə yerinə yetirilib | Əlavələr | Mövzuya dair təqdimat | Vaxta qənaət | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| ... | | | | | | | |

## 14. MEŞƏ CIĞIRINDAKI LƏPİRLƏR

*— Ləkə — sehrli dəyişmə —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi şagirdlərdə müxtəlif formalarda obrazı müəyyən etməkdir. Bunu müşahidələr əsasında görmək, müqayisə və təhlil etməklə yerinə yetirmək olar. Forma isə — ən adi ləkədir.* ***Ləkə*** *— ən vacib təsvir vasitələrindən biridir. O, səth üzərindəki təsvirin əsasını, xətt isə, adətən, görünməyən ləkənin kənar xətlərini təşkil edir, yəni ləkəni yaradan vasitədir. Burada müəllim uşağa obrazı ümumi şəkildə göstərməyi öyrədə bilər. Bu isə şagirdin ümumi düşüncə bacarığının, bədii və yaradıcı inkişafının ən vacib məsələsidir. Müəllim ləkənin vasitəsilə təsvirə çevrilmiş rəssam əsərləri ilə uşaqları tanış edə bilər. Burada şagird işləri də istisna olunmur. Tapşırıq şagirdin boya və fırça ilə işləmə bacarığını yavaş-yavaş, tədricən inkişaf etdirməsinə şərait yaradır. Bu mövzunun* ***nağıl-oyun*** *formasında da təqdim olunması münasib sayılır. Müəllim* ***"Ləkənin sehrli çevrilişi",*** *eləcə də divar səthində əl hərəkətləri ilə* ***kölgələr teatrı*** *da yarada bilər.*



*Uşaqlar heyvanları və onları təsvir etməyi çox sevirlər. Müəllim heyvanların zahiri görünüşünü şagirdlərin yadına salsa, onlar üçün heyvanları çəkmək asan olacaq. Bunun üçün müxtəlif heyvan şəkillərini slayd vasitəsilə göstərməklə onları şagirdlərlə birgə şifahi surətdə təsvir etmək olar. Heyvanların bədəni, başı və dörd ayağı olur. Atın ayaqları uzun və nazikdir, o, çox cəld qaçır, itin ayaqları isə gödəkdir, ilanın isə ayaqları yoxdur. Fil çox böyükdür, o, dördbucaqlıya bənzəyir, ayaqları isə çox enlidir. Ayının balaca, yumru qulaqları var, gözləri çox kiçikdir, boynu heç görünmür, quyruğu da, demək olar ki, yoxdur, yumru, əyripəncə ayaqları var, ayı özü də yumru və yumşaqdır. Zürafənin isə ayaqları və boynu çox uzundur. Bütün heyvanların qulaqları, bığları, quyruqları, ayaqları var . Yalnız onların hər biri fərqlidir.* ***Müqayisə görməyi öyrədir!***

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərə vərəq üzərində müxtəlif rənglərdən ibarət olan boya ləkələri göstərir və soruşur:

– Gördüyünüz haqda nə deyə bilərsiniz? Bunlar nədir? *(boya damcıları, rəngli ləkələr).*

Sonra onlara ləkə haqqında nağıl danışır:

*– Günlərin bir günü balaca bir qız rəsm çəkirdi. Onun fırçasının ucundan süzülən böyük bir damcı vərəqin üzərinə düşərək yayıldı. Vərəq bərk qəzəbləndi: "Gör bu ləkə məni necə də eybəcər göstərir!" Ləkə pərt oldu, öz-özünə fikirləşdi: "Necə də çarəsizəm, axı mən heç kimi incitmək və kədərləndirmək istəmirdim". Vərəqlə ləkənın söhbətini eşidən balaca qız aralarındakı mübahisəyə son qoymaq üçün ləkəyə dedi: "Fikir eləmə, mən sənə kömək edərəm". Ləkənin bu pərtliyi çox sürmədi, tezliklə çox maraqlı bir möcüzə baş verdi. Balaca qız ləkənin yuxarı hissəsindən boğaz, baş və quyruq, aşağı hissəsindən isə dörd ayaq çəkdi. Sizcə, ləkə nəyə çevrildi?* ***(heyvana)***

– Heyvanlar harada yaşayırlar? *(meşədə, zooparkda, isti və soyuq ölkələrdə və s.)*

– Onları ayaq izlərindən tanıya bilərsinizmi? Bu izləri ləkə adlandırmaq olar?

TƏDQİQAT SUALI: **Ləkəni heyvan və ya quşa çevirmək üçün nə etmək lazımdır?**

**Tədqiqatın aparılması.** Müəllim şagirdlərə vərəqdə istədikləri bir rəngdə tam sərbəst hərəkətlə ləkə çəkməyi tapşırır. Sonra bu ləkənin daha çox hansı heyvana bənzədiyini, yaxud ləkədə hansı heyvanın "gizləndiyini" müəyyən etmək, onun ayaqlarını, qulaqlarını, quyruğunu və bığlarını çəkərək tamamlamağı tapşırır. Uşaqların çoxunda real deyil, qeyri-adi, fantastik heyvan alına bilər. Yaxşı olar ki, şagirdlər rəsmdə təsvir etdikləri canlının xarakteri haqqında öz fikirlərini söyləməyi bacarsınlar.



*Qeyd. Bu mövzu üzrə praktik işin bir neçə variantı (işləmə üsulları) yerinə yetirilə bilər.*

***1-ci variant.*** *Şagirdlər vərəqdə istədikləri rəngdə və ölçüdə sərbəst birrəngli ləkə çəkirlər. Sonra parta yoldaşı ilə vərəqləri dəyişirlər. Bu daha maraqlı və yaradıcı ola bilər, çünki burada hər bir şagird oz rəsmini deyil, yoldaşının tapşırığını yerinə yetirməyi, yəni ləkəni nəyə çevirməli olduğunu düşünür. Beləliklə, uşaqlar bir-birinin işini tamamlayırlar.*

***2-ci variant.*** *Müəllim əvvəlcədən rəngli kağızdan kəsilmiş sərbəst ölçüdə və formada olan ləkəni vərəqə yapışdırır və ya şagirdə verərək yapışdırmağı tapşırır. Sonra onlar baş, boyun, ayaqlar çəkirlər, bir sözlə, kəsilmiş ləkəyə bəzi detallar əlavə edərək onu "canlandırırlar".*

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Rəsmi quş və ya heyvan təsvirləri olan rəngləmə ilə əvəz etmək olar.

İnteraktiv çalışma kimi müəllim tapmaca-oyun keçirə bilər. Lövhədə müxtəlif heyvan izlərinin fotosunu nümayiş etdirir və ya özü çəkir, şagirdlər isə bu heyvanı öz hərəkətləri ilə bildirirlər.

**Məlumat mübadiləsi.** Qruplarda işləyən şagirdlər öz işlərini təqdim edir, digər şagirdlər isə yoldaşlarının işinə münasibət bildirirlər.

**Ümumiləşdirmə və nəticə.** Heyvanlara harada rast gəlmisiniz? Onlar niyə bir-birindən fərqlənir? Rəng ləkələrini daha nəyə bənzətmək olar? Ləkədən heyvan təsvir etmək üçün nə etdiniz? Ləkəni heyvandan başqa daha nəyə çevirmək olar?

**Yaradıcı tətbiqetmə.** Rast gəlinən hər hansı bir ləkəyə diqqət yetirmək (mebelin, mərmərin, daşların üzərində) və onlarda olan ləkə naxışlarının nəyi xatırlatdığını təsvir etmək.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklər üzrə, yaxud qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamamışdan əvvəl meyarlar işləyib hazırlayır. Nəticədə isə toplanılan ballar sayılır.

| QRUPLAR | MEYARLAR | QEYRİ-ADİ | MARAQLI | ADİ |
|---|---|---|---|---|
| I | Ləkəni təsvirə necə çeviriblər? | | | |
| II | Quş və heyvanların xüsusiyyətlərini necə göstərə biliblər? | | | |
| III | Fırça və boyadan necə istifadə ediblər? | | | |
| IV | Təsvir etdikləri sadə formalı quş və heyvanlar haqqında öyrəndiklərini necə şərh edirlər? | | | |
| V | Tapşırığı səliqəli yerinə yetiriblər? | | | |
| | Nəticə: | | | |

# 15. QIŞ NAĞILI

*— Qrafika —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin məqsədi – ağ-qara rəsmlərin nümunəsində — qrafika haqqında anlayışları formalaşdırmaqdır. Qrafika — karandaş, qələm, kömür vasitəsilə kağız və ya karton üzərindəki təsvirlərə deyilir.*

*Qrafik-rəsmdə istifadə olunan qara, sadə karandaş və kömürün rəsmçəkmə imkanları, rəngli təsvirlərlə yanaşı  ağ-qara rəsmlərin də mövcudluğu və onların incəsənətdə rolu şagirdlərə izah olunur.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdləri qrafika haqqında anlayışlar və istifadə edilən qrafik materiallarla tanış etmək üçün yuxarı sinif şagirdlərinin ağ-qara rəsmlərini və yaxud rəssam əsərlərini nümayiş etdirir və soruşur:






– Gördüyünüz rəsmlər haqqında nə deyə bilərsiniz? Onlar niyə rəngli deyil? Bilirsiniz ağ-qara rəsmlər necə adlanır? *(fərziyyələr)*

– Diqqətlə baxsanız görərsiniz ki, rəsmlər yalnız qara flomasterlə, xətlər vasitəsilə təsvir edilib. Belə rəsmlərə ***qrafika,*** onu təsvir edən rəssama isə ***qrafik*** deyirlər. Qrafikanı, adətən, qara, yaxud sadə karandaş, flomaster, kömür, qələm və ya tuşla çəkirlər.

TƏDQİQAT SUALI: **Ağ və qara rənglərdən istifadə etməklə rəsmi necə çəkmək olar?**

Tədqiqat işi cütlüklərlə aparılır. 1-ci cütlük ağ fonda qara flomaster ilə, 2-ci cütlər isə qara A4 formatlı vərəqdə ağ quaşla “Pəncərədə naxışlar” mövzusunda rəsm çəkirlər.







– Elə təsəvvür edin ki, vərəqiniz pəncərə formasındadır. Qışda, qar yağarkən pəncərələr incə naxışlarla örtülür. Siz də bu naxışları bir-birinin ardınca ardıcıl çəkməklə maraqlı kompozisiya qurun.

Müəllim partalar arasında gəzib istiqamət verir. Müəllim cütlüklərin fəaliyyətini qiymətləndirmək üçün meyarları yazı lövhəsindən asır.

*Sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlanır. Qış mövzusuna aid rəngləmə  kompozisiyanı əvəz edə bilər.

**Məlumat mübadiləsi.** Yazı lövhəsinin qarşısında rəsmlər düzüləndən sonra müəllim dərsi ümumiləşdirir  və  sinfə müraciət edir.

**Ümumiləşdirmə və nəticə.** Ağ və qara rənglərlə işlənmiş əsərlər necə adlanır? Qışda təbiətdə hansı dəyişikliklər baş verir? Ağ və qara rənglərlə daha nə təsvir etmək olar?

**Yaradıcı tətbiqetmə.** Ağ və qara rənglərdən istifadə edərək “Qışda ağaclar” mövzusunu təsvir etmək.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud cütlüklərin fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

| Cütlər | Meyarlar | | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| № | Qrafika üçün lazım olan vərəqi seçə bilib? | Təsvir etdiyi naxışlar mövzuya uyğundur? | Flomasterlə və boya ilə naxış elementlərini, kompozisiyanı göstərə bilib? | Təsvirdə müxtəlif xətt və cizgilər istifadə edilib? | Təsvir səliqəlidir? | Təsvir tapşırılan vaxtda yerinə yetirilib? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci—14-cü | | | | | | | | | | |

## 16. TORPAĞIN NAXIŞLARI

*— Xalçaçılıq —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin əsas məqsədi — dekorativ-tətbiqi sənətin növlərindən biri olan xalçalar və üzərindəki naxışlarla tanışlıqdır. Naxışları müəyyən etmək, onların hansı formalardan ibarət olduğunu başa düşməkdir. Xalçalar haqqında ümumi məlumat, onların fotoşəklinin nümayişindən sonra şagirdlər (1-ci sinfin yaş səviyyəsinə uyğun) bu mövzuda naxışların artıq ardıcıl təsvirini deyil, "vərəq-xalça"səthi üzərində çiçəklərdən kompozisiya yaratmalıdır.*

**Dərsin gedişi / Motivasiya**

Müxtəlif gül şəkilləri göstərilir və yönəldici suallarla onların"təbiətin naxışları"olduğu (şagirdlərlə birgə) müəyyən edilir. Sonra güllərə harada rast gəlindiyi və hansı məişət əşyalarının üzərini bəzədiyi soruşulur (*qab, geyim, xalça və s.*). Şagirdlər fotoşəkillər vasitəsilə xalçalar və üzərindəki naxışlar haqqında bildiklərini danışırlar, müəllim də öz əlavələrini edir. Sonra gül-çiçəklərdən ibarət xalça təsvir edəcəklərini söyləyir.

TƏDQİQAT SUALI: **Güllərdən ibarət xalçanı necə təsvir etmək olar?**

**Tədqiqatın aparılması.** Şagirdlərə A3 formatlı vərəq üzərində müxtəlif ölçülərdə dairələr çəkmək tapşırılır. Bu dairələr güllərin orta hissəsi olacaq. Sonra isə 1 və 2-ci qruplar flomaster, 3 və 4-cü qruplar isə quaşla hər bir dairənin ətrafından ləçəklər çəkməklə onları rəngbərəng və müxtəlif ölçülü çiçəklərə çevirirlər.



Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Mövzunu rəngləmə ilə əvəz etmək olar.

İnteraktiv çalışma kimi lövhənin sol hissəsində müxtəlif güllərin kiçik hissələri verilir. Sağ tərəfdə isə boş kvadrat. Şagird gülləri hissə-hissə birləşdirərək gülün bütov təsvirini düzəltməlidir. Bu, bir növ, uşaqların sevimli və məntiqi oyunu – pazllardır.

**Məlumat mübadiləsi.** Qruplar xalçalarını təqdim etdikdən sonra birlikdə müzakirə aparır.

**Ümumiləşdirmə və nəticə.** Xalçalarınızda hansı təbiət naxışını təsvir etmisiniz? Gül-çiçəkləri daha nələrin üzərində təsvir etmək olar?

**Yaradıcı tətbiqetmə.** Azərbaycan xalçaları haqqında məlumat toplamaq.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud şagirdlərin fərdi özünüqiymətləndirmə cədvəlindən istifadə edə bilər.

| № | Meyarlar | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1 | Çəkilmiş dairələri çiçəklərə necə çevirmişəm? | | | | |
| 2 | Çiçəklərin forma və rəngini necə vermişəm? | | | | |
| 3 | Flomaster və fırçadan necə istifadə etmişəm? | | | | |
| 4 | Yoldaşlarımın işinə öz münasibətimi necə bildirmişəm? | | | | |
| 5 | Tapşırığı vaxt ərzində yerinə yetirə bilmişəm? | | | | |

# 17. ƏLVAN QUŞLAR

*— Oriqami —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Kağızı qatlama şagirdlərdə bədii və məntiqi təfəkkürü, səliqə və hövsələni, yaddaş və düşüncəni inkişaf etdirir. Oriqami həm də əsas həndəsi anlayışlarla tanışlıqdır: kvadrat, bucaq, tərəf, üçbucaq və s. Kiçikyaşlı şagirdlər üçün bu məşğələ xüsusilə yerinə düşər, çünki bu, yaradıcı bacarıqdan əlavə, həm də bir növ oyundur. Vərəqdən fiqurlar hazırlayaraq, şagirdlərlə birgə müxtəlif oyun formaları fikirləşmək olar. Fiqurları hazırlamazdan əvvəl şagirdlərlə əsas qatlama texnikalarını məşq etmək məqsədəuyğun sayılır. Bunu bacaran şagirdə fiqurların konstruksiyasını düzəltmək çətin gəlməyəcək; məsələn: düzbucaqdan kvadrat kəsmək, kvadratın bucaqlarını bir-biri ilə diaqonal şəkildə birləşdirib qatlamaqla üçbucaq almaq olar. Qatlamaq lazım olduğu üçün nazik vərəq seçməyi şagirlərin nəzərinə çatdırmaq yerinə düşərdi.*




**Dərsin gedişi / Motivasiya**

Şagirdlər müxtəlif quş səslərinə qulaq asır və onların kimə aid olduğunu tapırlar. Sonra müəllim yazı lövhəsindən müxtəlif quşların şəkillərini asır və soruşur:

– Gördüyünüz quşların adı və görünüşü haqqında nə deyə bilərsiniz? *(fərziyyələr)*

– Quşların xeyri nədir? *(fərziyyələr)*

Bu gün quşları kağızdan düzəldəcəyik. Onların əlvan və yaraşıqlı görünməsi üçün üzərini flomasterlərlə rəngləyib bəzəyəcəyik. Yəqin, hər biriniz valideynlərinizlə birgə kağızdan təyyarə və ya gəmi düzəltmisiniz. Kağızı qatlamaqla müxtəlif fiqurların düzəldilməsinə ***oriqami*** deyilir. Oriqami — "oru" (qatlamaq), "qami" (kağız) mənasını verən iki sözün birləşməsindən yaranıb. Müəllim oriqami texnikası ilə yaradılmış müxtəlif əşya, heyvan və quş fiqurları nümayiş etdirə bilər.

| TƏDQİQAT SUALI: **Oriqami texnikasında quşu hansı ardıcıllıqla düzəltmək olar?** |
|---|

**Tədqiqatın aparılması.** Hər cütlük öz yoldaşı ilə müəllimin partanın üzərinə qoyduğu oriqami nümunəsinin sxemini düzəldir. Bunun üçün müəllim şagirdlərin sayına müvafiq oriqaminin düzəldilmə mərhələsini əks etdirən təsvirin surətini təqdim etməklə və ya lövhədə, slayd vasitəsilə nümayiş etdirə bilər. Lakin öncə şagirdlərə A4 formatlı kağızdan kvadrat formanı necə kəsməyi başa salmaq yaxşı olardı, çünki oriqami nümunələrinin əsasını bu forma təşkil edir. Cütlüklərin fəaliyyətini qiymətləndirmək üçün meyarlar yazı lövhəsindən asılır. Nümunə:

**1-ci cütlük**



**2-ci cütlük**



***Qeyd:*** *müəllim quşun düzəldilməsini özünün seçdiyi oriqami texnikası ilə əvəz edə bilər.*

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Quşlara aid rəngləmə vermək olar.

**Məlumat mübadiləsi.** Şagirdlər işlərini təqdim edir. Müəllim onları bir yerə toplayaraq gözəl panno yaradır.

**Ümumiləşdirmə və nəticə.** Hansı quşları tanıyırsınız? İnsanlar niyə quşları qoruyur? Oriqamini hansı ardıcıllıqla düzəltdiniz? Oriqami texnikasında daha nələr düzəltmək olar?

**Yaradıcı tətbiqetmə.** Sevimli quşun rəsmini çəkmək və quaşla rəngləmək.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud cütlüklərin fəaliyyətinin verilmiş qiymətləndirilmə formasından istifadə edə bilər.

| **Cütlər** | **Meyarlar** | | | | | | **Nəticə** | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| № | Oriqami üçün lazım olan kağızı seçə bilib? | Qatlamaları düzgün yerinə yetirib? | Düzəltdiyi oriqami mövzuya uyğundur? | Flomasterlə rəngləmə və bəzək detallarını göstərə bilib? | Düzəltdiyi oriqamini izah edə bilir? | Təsvir tapşırılan vaxt ərzində yerinə yetirilib? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci | + | + | + | + | + | | * | | | |
| 2-ci | + | + | + | – | + | | | * | | |
| 3-cü | + | – | + | – | + | | | | * | |
| 4-cü | + | – | - | – | + | | | | | * |
| 5-ci və s. | | | | | | | | | | |

## 18. TƏBİƏTİN NAXIŞLARI EVİMİZDƏ

— *Misgərlik* —

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsdə kiçikyaşlı şagirdlərə dekorativ-tətbiqi sənətin növlərindən biri olan misgərlik, onun xüsusiyyətləri haqqında ümumi məlumat vermək, məişət əşyasının konstruksiya, forma və bəzəyi təyinatından ("Nə üçündür? Hansı məqsədlərdə istifadə olunur?" və s.) asılı olduğunu dərk etməyi öyrətməkdir. Müəllim Azərbaycanda ən çox inkişaf etmiş misgərlik sənətinin xalqın məişətində və mədəniyyətində mühüm yer tutduğunu vurğulaya bilər. İnsan hər zaman çalışır öz məişətində istifadə etdiklərini bəzəsin, onlara gözəllik versin. Mövzunun şərhi zamanı xalq sənətini qoruyub saxlamağı, insan əməyinə hörmətlə yanaşmağı şagirdlərdə tərbiyə etmək çox əhəmiyyətlidir. Misdən hazırlanan məişət əşyaları həm forma, həm də naxışlarına görə digər qablardan fərqli olur. Ustaların misdən hazırladığı incə naxışlı məişət əşyaları muzeylərimizdə qorunub saxlanılır və onlardan dolça, satıl, sərnic, məcməyi, güyüm, aşsüzən, kəfkir, kasa, cam, qazan bu gün də evlərimizi bəzəyir. Şagirdlərə plastilin vasitəsilə misdən hazırlanan ən sadə məişət əşyalarını necə düzəltməyi və üzərini naxışlarla bəzəməyi başa salmaq məqsədəuyğundur.*

### Dərsin gedişi / Motivasiya

Müəllim əyani olaraq şüşə, plastik və mis qabları şagirdlərə göstərərək onların hansı materialdan olduğunu soruşur. Sonra onların fərqli və oxşar cəhətlərini birgə müəyyən edirlər.

– Əzəldən yurdumuzun sənətkarları metaldan müxtəlif məişət əşyaları düzəldərdilər. Ən çox istifadə olunan metal isə ***mis*** idi. Misdən düzəldilmiş əşyalara ***misgərlik nümunələri*** deyilir. Qədim misgərlik nümunələrinə hər bir ailədə, əsasən də, bölgələrimizdə rast gəlmək olar. Misgərlik sənətinin qədim ənənələri bu gün də yurdumuzda qorunaraq nəsildən-nəslə ötürülür. Mis qablardan — məcməyi, kasa, aşsüzən və kəfkir haqqında, onların naxışları və harada istifadə olunması barədə söhbət aparılır. Sonra onları plastilindən yapmaq tapşırılır.




TƏDQİQAT SUALI: **Mis məişət əşyalarını plastilindən necə düzəltmək olar?**

**Tədqiqatın aparılması.** Praktik iş qruplarda yerinə yetirilir. Qrupları məişət əşyalarının şəkilləri vasitəsilə ayırmaq olar. Yapmanı mərhələlərə uyğun olaraq müəllim şagirdlərə başa salır və üzərində sadə naxış formalarını isə *heykəltəraş bıçağı ilə necə cızmağı* göstərir. Qrup fəaliyyətinin qiymətləndiriləcəyi bildirilir.

*Məcməyi*



*Kasa*



*Aşsüzən*



*Kəfkir*



Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar verə bilər. Lakin yapma olduğundan şagird bacardığı kimi istənilən mis qabı yapa bilər.

**Məlumat mübadiləsi.** Qruplar yapdıqlarını təqdim edir. Onlar təriflər, suallar və təkliflər üsulundan istifadə edərək müzakirə aparır.

**Ümumiləşdirmə və nəticə.** Mis əşyaları hansı ardıcıllıqla düzəltdiniz? Onlara harada rast gəlmək olar? Misdən hazırlanmış hansı əşyaları evdə istifadə edirsiniz?

**Yaradıcı tətbiqetmə.** Misgərlik sənəti haqqında müxtəlif mənbələrdən məlumat toplamaq.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrupların aşağıdakı qiymətləndirilmə formasından istifadə edə bilər.

| **Qruplar** | **MEYARLAR** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Yapma necə yerinə yetirilib | Əlavələr | Mövzuya dair təqdimat | Vaxta qənaət | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| ... | | | | | | | |

## 19. TƏBİƏTİN YARATDIĞI EVLƏR

*— Konstruksiya —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu dərsdə şagirdlər bədii konstruktiv fəaliyyətin əsasları ilə tanış olurlar. Çox zaman evi çəkərkən şagirdlər ənənəvi evin formasını təsvir edirlər: kubik, üçbucaq dam və baca. Müəllim şagirdlərlə birgə real memarlıq nümunələrinin şəkilləri, tikililərin müxtəlif məqsədlərə xidmət etdiyi haqqında söhbət aparır: evlər, mağazalar, məktəblər, qalalar və s. Onların hansı hissədən ibarət olduğunu, dam, divar, pəncərə, qapının necə olacağını, orada kimin yaşayacağını düşündürməklə şagirdlərdə memarlıq haqqında müəyyən təəssüratlar formalaşır. Bununla yanaşı, təbiətdə formalaşan konstruksiyaları da nəzərdən keçirmək lazımdır. Dərsin əsas məqsədi – şagirdlərdə formanı hiss etmək qabiliyyətini, analiz etməyi inkişaf etdirməkdir. Çünki tikilinin necə olduğunu başa düşmək üçün onun konstruksiyasını müəyyən etmək lazımdır.*

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərə müxtəlif memarlıq nümunələrinin şəkillərini göstərir və onların necə və kim tərəfindən yaradıldığını soruşur və qısa məlumat verir. Sonra təbiətin yaratdığı tikililəri göstərir.

– İnsanlar ev, park, kənd, şəhər tikirlər. Bu xüsusiyyət onlarda qədim zamandan formalaşıb. Tikilinin formasının necə olduğunu, onu necə tikməyi isə rəssam düşünür. Bu

rəssam ***memar*** adlanır, tikililər isə – memarlıq nümunələri. Uşaqlar da tikir – qumdan, qardan və ya kiçik oyuncaq kublardan. İnsan bütün yaratdıqlarını təbiətdən öyrənir. Meşədə ətrafa nəzər salsaq müxtəlif evlərin olduğunu görmək olar. Quş, heyvan yuvası və koğuş, balıqqulağı və tısbağanın, ilbizin çanağı – təbiətin yaratdığı evlərdir. Arılar da özünə ev tikir, qarışqa yuvası isə, demək olar ki, bütöv bir şəhərə bənzəyir!

Müəllim şagirdlərə nağıllarda olan evlər haqqında da söhbət aça bilər. İnsan və təbiətin yaratdığı evlər Venn diaqramı vasitəsilə müqayisə olunur. Şagirdlər qruplara ayrılırlar. Müəllim təbiətin yaratdığı tikililərə bənzər və yaxud qeyri-adi ev formaları düşünməyi tapşırır.

TƏDQİQAT SUALI: **Evin formasını təsvir edəndə nəyi nəzərə almaq lazımdır?**

**Tədqiqatın aparılması**

– Təsvir edəcəyiniz evin daxili hissəsi yaşamaq üçün rahat olmalıdır. Pəncərə, qapı, baca çəkməyi unutmayın. Bəlkə, sizin çəkdiyiniz ev təkərlər üzərində olacaq? – Bəlkə, onun qanaqları da var? (Qruplar işləyərkən müəllim onlara istiqamət verir.)

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Rəsmi rəngləmə ilə əvəz etmək olar.

**Məlumat mübadiləsi.** Qruplar düzəltdiklərini yazı lövhəsinin qarşısında düzürlər. Şagirdlər "qalereya gəzintisi" vasitəsilə yoldaşlarının işlərini müzakirə edirlər.

**Ümumiləşdirmə və nəticə.** Canlılara ev nə üçün lazımdır? Onu çəkəndə nəyi nəzərə aldınız?

– Rəng həllini nəyə əsasən müəyyənləşdirdiniz?

– Heyvanların evi ilə yaşadığımız evlər arasında hansı oxşar və fərqli cəhətlər var?

**Yaradıcı tətbiqetmə.** Sinifdə çəkdiyi evin daxili hissəsini təsvir etmək. Orada yerləşəcək əşyaları da çəkmək olar.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrupların aşağıdakı özünüqiymətləndirilmə formasından istifadə edə bilər.

| № | Meyarlar | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1 | Evin formasını təbiət obrazlarına bənzədə bilmişikmi? | | | | |
| 2 | Evin təsvirində karandaş, fırça, flomasterlərdən necə istifadə etmişikmi? | | | | |
| 3 | Rəng həllini düzgün seçmişikmi? | | | | |
| 4 | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirmişikmi? | | | | |
| 5 | Təsviri səliqəli yerinə yetirmişikmi? | | | | |
| | Nəticə: | | | | |

## 20-21. TƏBİƏTİN BAYRAMI

*— Novruz adət-ənənələri —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Novruz bayramının xüsusiyyətləri, atributları ilə şagirdləri tanış edərkən milli adət və ənənələrin tarixinə qısa ekskurs etmək, onları qoruyub saxlamaq zərurətini qeyd etməklə məşğələni başlamaq məqsədəuyğundur.*

*Novruz bayramının əsas atributlarından biri olan yumurtanın bəzədilməsinə xüsusi diqqət verilir. Şagirdlər ilk növbədə — nəbati və həndəsi naxış növlərini yada salır. Dərsdə yenilik isə bu naxış növlərindən kiçik kompozisiyalar qurmaq bacarıqlarını inkişaf etdirməkdir.*

***Qeyd.*** *Təbiətdə baş verən dəyişikliklərlə tanışlıq, təbiətin gözəlliyinə emosional həssaslığı inkişaf etdirmək, torpağa məhəbbət hissini tərbiyə etmək mövzunun əsas məqsədlərindəndir.*

*Dərsə 2 saat ayrılmışdır. 1-ci dərsdə şagirdlər yumurtaların bəzədilməsi ilə, ikinci dərsdə isə səməninin və bayram xonçasının çəkilməsi ilə məşğul ola bilərlər.*




**Dərsin gedişi / Motivasiya**

Müəllim lövhədə sual şəkli çəkilmiş kartoçka asır. Gizlədilmiş anlayışın ətrafında ona aid olan 3 yönəldici söz əlavə edir və bu sözlərin nəyi xatırlatdığını soruşur. Şagirdlər tərəfindən tapılan anlayışın Novruz bayramına aid olduğunu müəllim mərkəzdə yerləşən kartoçkanı açaraq göstərir.

Sonra o, şagirdlərdən Novruz bayramı haqqında bildiklərini soruşur və onun yazın, baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması demək olduğunu bildirir:

– Əkinçi məhsul əkəcəyi torpağın şumuna başlayır. Bağban meyvə ağaclarının quru budaqlarını kəsir. El-obada, hər ailədə bayrama hazırlıq işləri aparılır. Bayramda süfrəyə müxtəlif şirniyyatlar və çərəzlərlə zəngin xonça qoyulur. Boyanmış rəngbərəng yumurtalar isə bu xonçaya məxsusi gözəllik verir. Siz də bu gün flomaster və quaşla yumurtaları rəngarəng naxışlarla bəzəyəcəksiniz.

TƏDQİQAT SUALI: **Novruz yumurtalarını bəzəmək üçün nə etmək lazımdır?**

**Tədqiqatın aparılması.** Tədqiqat işi cütlüklərlə aparılır. Müəllim A4 formatlı rəsm vərəqində əvvəlcədən çəkdiyi yumurtaları paylayır və "Şəkli birgə çəkək" üsulunu onlara başa salır. Cütlər bir-biri ilə müzakirə edir və hər biri eyni naxışlı olan yumurtanı elə çəkirlər ki, yaratdıqları naxışlar bir-birini tamamlasın. Şagirdlər yumurtanı kontur xəttindən kəsir. 1-ci cütlük onları nəbati, 2-ci cütlük isə həndəsi naxışlarla bəzəyir və naxışlardan kiçik kompozisiya qururlar. Hər iki yumurtanın naxışları eyni olmalıdır, çünki yalnız eyni naxışla bəzədilmiş yumurta əməkdaşlığın nəticəsi sayıla bilər. Aşağı hissəsində ad və soyadlarını qeyd edir və bir-biri ilə yapışdırırlar. Nəticədə iki tərəfi də bəzənilmiş yumurta alınacaq. Müəllim şagirdlərə cütlüklərin fəaliyyətinin qiymətləndiriləcəyini xatırladır.

***Qeyd.*** *Müəllim yumurta formasını kartonda maket kimi əvvəlcədən kəsərək hazırlaya bilər. Bunu dərsdə, bayram adət-ənənələrinin müzakirəsi zamanı da çəkə bilər (vaxta qənaət baxımından əvvəlcədən çəkmək tövsiyə olunur).*




Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün də bu tapşırığı verə bilər. Çətinlik çəkən şagirdlər naxış əvəzinə yumurtanı hissələrə ayıraraq müxtəlif rənglərlə boyaya bilər.

**Məlumat mübadiləsi.** Qruplar işlərini təqdim edir. Müəllim yumurtaların yuxarı hissəsindən kiçik dəlik açaraq sap keçirir və onları asır.

**Ümumiləşdirmə və nəticə.** Bayramda yumurtaları niyə bəzəyirlər? Onları hansı ardıcıllıqla və hansı naxışlarla bəzədiniz?

– Novruz bayramı yadda bolluq, xeyirxahlıq, gözəllik bayramı kimi qalır. Novruz süfrəsinə xörəklər, çərəz, səməni, şirniyyat düzülür. Evdəkilərin hər birinin adına şam yandırılır. Bayram axşamında hər kəs öz evində, dərd-qəmi unudub şən ovqatlı olmalıdır ki, bütün il belə keçsin.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud cütlüklərin qiymətləndirilməsindən istifadə edilir.

| Cütlər | Meyarlar | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | Yumurtanın bəzədilməsində naxış növünü düzgün müəyyən edib? | Flomaster və quaşla rəngləmə və bəzək detallarını göstərə bilib? | Bəzədiyi yumurtada naxış növünü izah edə bilib? | Naxışlardan kiçik kompozisiyalar qura bilib? | Təsvir tapşırılan vaxt ərzində yerinə yetirilib? | Əla | Yaxşı | Orta | Zəif |
| 1-ci—14-cü | | | | | | | | | |

# “Sehrli təbiət” vahidi üzrə ümumiləşdirici tapşırıqlar

**1. Gördüklərinin hansı təbiətin bəzəyi sayılmır?**

**a.** □  **b.** □  **c.** □ 

**2. Hansı qab misgərlik nümunəsinə aiddir?**

**a.** □  **b.** □  **c.** □ 

**3. Qrafika üsulunda çəkilmiş rəsmi qeyd et.**

**a.** □  **b.** □  **c.** □ 

**4. Oriqamini qeyd et.**

**a.** □  **b.** □  **c.** □ 

**5. Ləkə formasının nəyi xatırlatdığını tap və çəkərək tamamla.**



**6. Günəbaxanın yarı hissəsini çəkərək tamamla. Rəngləməyi unutma.**



— 4-cü vahid—

# GÖRMƏK və YARATMAQ MƏHARƏTİ

## MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

### 22. MƏNZƏRƏ

*— Bəhruz Kəngərli —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Mövzunun məqsədi şagirdləri təsviri sənətin əsas növlərindən olan rəngkarlıqla tanış etməkdir. Akvarel və fırçadan istifadə etməklə təsviri sənətin janrlarından biri olan mənzərəni təsvir etməkdir. Şagirdlər Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Bəhruz Kəngərli və onun ən məşhur mənzərə əsərləri nümunəsində yaz fəsli və onun xüsusiyyətləri ilə tanış olurlar. O, mənzərə janrına üstünlük verir və akvarel boyaları ilə bir çox əsərlər yaratmışdır.*

Günəş, bulud, ağac, kol, ot, gül-çiçək, həşəratların təsvirləri ilə şagirdlərə mənzərə janrı haqqında məlumat verilə bilər. ***Mənzərə*** – təbiətin təsviridir, mənzərəni çəkən rəssamlara isə ***mənzərəçi rəssam*** deyilir. Mövzu yaz fəslində keçirildiyindən təbiətdə baş verən dəyişiklikləri sual-cavabla müzakirə etmək olar. Sonra müəllim yalnız boyalar vasitəsilə yaradılan əsərlərin ***rəngkarlıq*** nümunələri, boyalarla təsvir edən rəssamın isə ***boyakar rəssam*** olduğunu şagirdlərin diqqətinə çatdırır.

Boyakar rəssam **B.Kəngərlinin** həyat və yaradıcılığı haqqında 1-ci sinif şagirdinin yaş səviyyəsinə uyğun *qısa məlumat* verməkdövsiyə olunur. Rəssamın yaratdığı mənzərə janrının xüsusi yer tutduğunu, onun mənzərələrində, əsasən, təbiət gözəlliklərinin əks edildiyini vurğulamaq vacibdir. “Şəlalə”, “Dağlıq mənzərə”, “İlandağ ay işığında”, “Günəş batarkən”, “Ağrı dağı”, “Köhnə qala” və digərləri mənzərə əsərləridir.

Müəllim onun akvarellə işlədiyi mənzərələrdə rənglərin zərifliyi və əlvanlığı, boyaların zənginliyi, təsvirin reallığı ilə insanı valeh etdiyini başa salmaqla yanaşı, rəssamın mənzərə nümunələrində akvarel boyanın əsas xüsusiyyətlərindən olan zərifliyini xüsusi vurğulamalıdır. Müəllim şagirdlərlə onun mənzərələrində təbiətin əhvali-ruhiyyəsini birgə müəyyənləşdirir, akvarel texnikasında necə işlədiyini müzakirə edir. Müəllim bu əsərləri şagirdlərə əyani və ya elektron təqdimatla nümayiş etdirsə, şagird onun yaradıcılığı ilə daha yaxından tanış olar, bu əsərləri tanıyar və digər rəssam əsərlərindən fərqləndirməyi bacarar.

Bəhruz Kəngərlinin əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. Muzeyə ekskursiya təşkil etmək tövsiyə olunur. Şagirdlər növbəti mövzularda tanış olacaqları rəssam əsərləri ilə canlı ünsiyyət zamanı əyani seyr etməklə yanaşı, onların qorunub saxlanıldığını da bilməlidirlər.



*“Mənzərə”*



*“Çoban sürüsü ilə”*



*“Evlə mənzərə”*

TƏDQİQAT SUALI: **Yaz mənzərəsində nələr təsvir olunur? Onları necə çəkmək olar?**

Müəllim şagirdləri 4 qrupa ayırır. Qruplar yaz mənzərəsini çəkir. Müəllim partalar arasında gəzib onlara istiqamət verir. Qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edəcəklərini xatırladır və meyarları yazı lövhəsindən asır.

☺ Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Yaz mənzərəsini şagirdə təbiəti təşkil edən varlıqlar və ya təbiət rəngləməsi kimi də təqdim etmək olar. Bu, nöqtələr üzrə varlıq və ya rəsm kimi tapşırıq ilə əvəz oluna bilər. Qruplar işlərini təqdim edir və digər qruplar "Qalereya gəzintisi" üsulu zamanı fikirlərini bildirir.

**Yaradıcı tətbiqetmə.** Qış mənzərəsi təsvir etmək.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır: *təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında bildiklərini söyləyir; Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi — rəssam Bəhruz Kəngərlini tanıyır və onun ən məşhur əsərlərini sadalayır; sadə təsvir aləti — fırçanı təyinatına görə istifadə edir; verilmiş mənzərə və rəssam əsərlərində rəng çalarlarını tanıyır və adlandırır.*

## 23. NATÜRMORT

*— Səttar Bəhlulzadə —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu mövzu şagirdlərdə fırça ilə işləmə bacarıqlarını formalaşdırır. Fırçanın –* ***nöqtələmə, yaxma*** *və* ***basma*** *üsulu Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadənin yaradıcılığında, onun natürmort əsərlərinin timsalında qavranılması məqsədəuyğundur. Rəssam əsərləri üzərində üfüqi və şaquli kompozisiyanın müəyyən edilməsi rəsmetmə prosesinə əlavə yardımçı olar.*

Şagirdlərin diqqətini mövzuya yönəltmək üçün fırça ilə işləmə üsulları barədə söhbət açmaq və boyakar rəssamın alətinin fırça olduğunu yada salmaq tövsiyə edilir. Bunun üçün müəllim rəssam əsərlərindən ibarət şəkil üzrə iş təşkil edə bilər. Bu işin Azərbaycanın görkəmli fırça ustası – ***S.Bəhlulzadənin*** natürmort əsərləri əsasında aparılması tövsiyə olunur. Müəllim, S.Bəhlulzadə yaradıcılığında ***natürmortun*** xüsusi yer tutduğunu, rəssamın tablolarında təbiət nemətlərinin – meyvə, tərəvəz, güllərin milli məişət əşyaları ilə birgə təsvir olunduğunu bildirir. Onlarda ənənəvi xalq yaradıcılığı və Azərbaycanın təbiət motivləri tərənnüm olunur.

***Naturadan rəsm*** – rəssamın qarşısında olanları müşahidə əsasında təsvir etməsidir. "Kəlağayı ilə natürmort", "Abşeron narları", "Şamaxı örtüyü ilə natürmort" və digər rəssam əsərlərindən fərqləndiyi, özünəməxsus fırça ilə işləmə üsuluna malik olduğu şagirdlərə izah edilə bilər.



*"Zəfəran ilə natürmort"*



*"Abşeron bağlarında"*



*"Şamaxı örtüyü ilə natürmort"*



*"Corat qovunları"*

S.Bəhlulzadənin yaradıcılığında Azərbaycan təbiətini tərənnüm edən mənzərələrin də olduğunu şagirdlərə çatdırmaq məsləhət görülür. Rəssamın əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi və başqa şəhər muzeylərində saxlanılır.

TƏDQİQAT SUALI: **Naturadan natürmortu necə çəkmək lazımdır? Natürmortu fırçanın işləmə üsulları ilə necə rəngləmək olar?**

Şagirdləri fırçanın müxtəlif üsulları ilə təsvirləri necə rəngləməyi düşündürmək faydalı olardı. Sonra əsərlərdə fırçanın "məharəti" haqqında şagirdlərin keçmiş dərsdən olan bilikləri yada salınır. Bu zaman firçanın ucu ilə *nöqtələmə, basma* və *yaxma* üsulunda isə bütov fırça ilə işlənildiyini başa sala bilər. Müəllimin bunu əyani nümayiş etdirməsi kiçikyaşlı şagirdlər üçün çox əhəmiyyətli olardı.

Bu üsullarla şagirdləri 3 qrupa bölərək təsvir edəcəkləri natürmortlarda hər qrupa məxsus olan üsulla rəngləməyi tövsiyə etmək olar. 1-ci qrup quaşla – nöqtələmə, 2-ci qrup – basma, 3-cü qrup isə yaxma üsullarından istifadə etməklə qrup daxilində cütlərlə və ya fərdi işləyə bilərlər.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Quaş əvəzinə natürmortu flomasterlərlə rəngləmə və ya nöqtələmə üzrə rəsm kimi tapşırıq ilə əvəz etmək məsləhət görülür.

Müəllim təsvirlərdə rəsm vərəqinin hansı halda *şaquli və ya üfüqi* tutulduğunu belə izah edə bilər: "Çəkmək üçün seçilən əşya və ya məhsulları rəssam qarşısına düzür. Əşyalar eninə çox yer tutarsa, bu zaman vərəqi üfüqi, uzununa yerləşdirilərsə, şaquli tutmaq lazımdır. Səttar Bəhlulzadə "Zəfəran ilə natürmort" və "Corat qovunları" əsərlərində məhsulları şaquli yerləşdirmişdir, çünki hər ikisində uzun formaya malik olan qab var. "Abşeron bağlarında" və "Şamaxı örtüyü ilə natürmort"da isə – eninə". Şagirdlərə öz rəsmlərində də bu qaydalara əməl etmələrinin münasib olduğu diqqətə çatdırıla bilər. Müəllim qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edəcəklərini xatırladır və meyarları yazı lövhəsindən asır.

Qruplar çəkdikləri natürmortu yazı lövhəsinin qarşısına qoyur və müəllim ümumiləşdirici suallar verir. Bəhruz Kəngərli ilə Səttar Bəhlulzadəni Venn diaqramı vasitəsilə müqayisə edirlər.

**Yaradıcı tətbiqetmə.** Çiçəklərdən ibarət natürmort çəkmək.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır: *təsviri sənətin əsas növlərindən olan rəngkarlıq haqqında bildiklərini söyləyir; Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən Səttar Bəhlulzadəni və onun ən məşhur əsərlərini sadalayır; sadə təsvir alətlərindən olan fırçanı təyinatına görə istifadə edir; verilmiş rəssam əsərlərindəki natürmortlarda rəng çalarlarını ayırır və adlandırır.*

## 24. SÜJETLİ ƏSƏRLƏR

*— Əzim Əzimzadə —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin məqsədi — Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Əzim Əzimzadə və onun ən məşhur əsərlərinin nümunəsində təsviri sənətin janrlarından olan süjetli əsərlər haqqında anlayışları formalaşdırmaqdır. Ə.Əzimzadənin yaradıcılığı haqqında məlumat verən müəllim onun əsərlərinin əsas mövzusunu adətlər və xalqın məişəti təşkil etdiyini bildirir. Əsərləri dünyanın bir sıra muzeylərində nümayiş etdirilmişdir. Yaşadığı evdə rəssamın ev-muzeyi açılmış, evin yaxınlığındakı bağda büstü qoyulmuşdur. Müəllimin rəssamın ev-muzeyinə ekskursiya təşkil etməsi əhəmiyyətli olardı.*



"İt boğuşdurma"

Müəllim şagirdləri süjetli əsərlərlə tanış etmək üçün yazı lövhəsində rəssamın bir neçə əsərini nümayiş etdirir və orada nələr təsvir olunduğunu soruşur. Çox zaman rəssamlar insanın gündəlik həyatında baş verən hadisələri təsvir edirlər. Onları **süjetli** əsərlər adlandırırlar. Şagirdlərə onların həyatında baş verən maraqlı hadisəni (yaş səviyyəsinə uygun, bacardığı kimi) təsvir etmək tapşırılır.

TƏDQİQAT SUALI: **İnsanın gündəlik həyatında baş verən hadisələri necə təsvir etmək olar?**



"Novruz"

Ə.Əzimzadə haqqında ümumi məlumat verilir. Müəllim qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edəcəyini xatırladır və meyarları yazı lövhəsindən asır.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Rəsmi rəngləmə ilə əvəz etmək olar.

Rəsmlər yazı lövhəsinin qarşısında düzülür. Şagirdlər onu təqdim edir və haqqında məlumat verirlər.

– Ə.Əzimzadə kimdir? Onun hansı əsərlərini tanıyırsınız? O, ən çox nə təsvir edir?

Venn diaqramı vasitəsilə Ə.Əzimzadə və B.Kəngərlinin yaradıcılığını müqayisə edirlər.

**Yaradıcı tətbiqetmə.** Rəssamın yaradıcılığı haqqında məlumat toplamaq.

**Qiymətləndirmə.** Qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edərək şagirdlər öz qruplarını aşağıdakı meyarlarla qiymətləndirirlər:

*Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Əzim Əzimzadə və onun ən məşhur əsərlərini sadalayır; sadə və rəngli karandaşlarla səthi təsvir yaradır; verilmiş sadə formalı təsvir və əşyaları şərh edir.*

## 25. PORTRET

*— Fuad Əbdürrəhmanov —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Şagirdlər üçün vacib məşğələlərdən biri sayılan –* ***yapma dərsləri*** *yaradıcılığı, əşyaların forma və rəng anlayışını inkişaf etdirir.*

*Yapma haqqında məlumar verərkən, müəllim onun təsviri incəsənətin ən qədim növlərindən biri olduğunu, qədim zamanlarda insanların gildən qab və oyuncaqlar düzəltdiklərini söyləyə bilər.*

*Heykəltəraşlıq mövzularının boyakarlığa nisbətən imkanları məhduddur. Çünki heykəltəraşlıq vasitələrilə mənzərə, insanı əhatə edən mühiti göstərmək çox çətindir. Heykəltəraşlığın əsas məzmunu – insan, nadir hallarda isə heyvan təsvirləridir. Bu zaman heykəltəraş – rəssam hər hansı təsvir obyektini həcmli yaradır. Rəsmdən fərqli olaraq bunlara hər tərəfdən baxmaq mümkündür.*

*Heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsi, xalq rəssamı F.Əbdürrəhmanovun həyatı, yaradıcılıq fəaliyyəti, sənətkarlıq xüsusiyyətlərilə şagirdləri tanış edən müəllim onun əsərlərini slaydlar vasitəsilə nümayiş etdirə bilər. Plastilinlə yapmanın müxtəlif imkanlarını şagirdlərə başa salmaq və əyani nümayiş etdirmək də faydalıdır.*

Müəllim yapmanın nə olduğunu, insan əli ilə nələri yapmağın mümkünlüyü barədə və plastilinin "məharəti" haqqında sinfə suallarla müraciət edə bilər.

İnsan müxtəlif materiallardan nə qədər varlıqlar yapa bilir: qardan qaradamı, xəmirdən çörək, duzlu xəmirdən oyuncaq, gildən qab, qumdan heykəl, plastilindən adam.







Şagirdlərə Azərbaycan heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsi, xalq rəssamı F.Əbdürrəhmanovun həyat və yaradıcılığı haqqında məlumat verən müəllim müxtəlif əsərlərini nümayiş etdirir və soruşur:



*"Azad qadın"*



*"S.Vurğun"*



*"M.Füzuli"*



*"Çoban"*

– Gördükləriniz haqda nə deyə bilərsiniz? Onlara harada rast gəlmək olar? *(heykəllər; şəhərimizin küçələrində).* – Heykəltəraşlar heykəlləri müxtəlif materiallardan yaradırlar: ağacdan, gildən, gipsdən, daşdan, metaldan. Bu heykəllər ətrafdan seçilmək və görünmək üçün hündür və bəzədilmiş altlıq üzərində dayanır. Rəssamlar isə insanı təsvir edirlər. Onlar necə adlanır? (fərziyyələr, portret). – İnsan təsvirlərinə ***portret*** deyilir. Siz də plastilindən qeyri-adi portret çəkəcəksiniz.

**TƏDQİQAT SUALI: Portreti plastilinlə necə "çəkmək olar"? Yapmada hansı üsullardan istifadə etmək mümkündür?**

– Bunun üçün: (1) A4 formatlı karton və yaxud plastik lövhə üzərinə (2) plastilin kütləsini oval formada yayırsınız – bu, insanın başı olacaq. (3) Sonra karandaşla onun sifət cizgilərini cızmaq lazımdır. Plastik bıçaqla saç formasını da göstərmək olar.




Bu dərsdə müəllim şagirdlərə iş zamanı sərbəstlik imkanı yaradır. Bu texnika şagirdlər üçün yeni olduğuna görə onlar çox maraqla işləyirlər.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Yapmanı rəngləmə ilə əvəz etmək olar.

Qruplar plastilinlə çəkdikləri portretləri yazı lövhəsinin qarşısından düzür. "Qalereya gəzintisi" vasitəsilə müzakirə aparılır. Fuad Əbdürrəhmanov kimdir? Onun hansı əsərlərini tanıyırsınız? Portreti hansı ardıcıllıqla çəkdiniz? Fuad Əbdürrəhmanov və Ə.Əzimzadə yaradıcılığını Venn diaqramı vasitəsilə müqayisə edirlər.

***Qeyd.*** *Yapma vasitəsilə şagirdlərin kiçik motorikası – əl barmaqlarının xırda hərəkətləri təkmilləşir və mütəhərrik olur. Bu da, öz növbəsində, uşağın danışığına və təfəkkürünün inkişafına təsir edir. Yapmaq — ümumi sinir sisteminə də müsbət təsir göstərir.*

**Yaradıcı tətbiqetmə.** Sənə yaxın olan, istədiyin adamın portretini çəkməyə çalış.

**Qiymətləndirmə.** Qrupun özünüqiymətləndirmə cədvəlindən istifadə edərək şagirdlər öz qruplarını qiymətləndirirlər. Qiymətləndirmə zamanı qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə olunur. Müəllim cədvəli yazı lövhəsindən asır və qruplara özlərini qiymətləndirmələri üçün meyarları oxuyaraq kömək edir: *təsviri sənətin əsas növlərindən heykəltəraşlıq haqqında bildiklərini sadalayır; Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən Fuad Əbdürrəhmanov və onun ən məşhur əsərlərini sadalayır; plastilindən sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur; verilmiş heykəl təsvirlərini və əşyaları şərh edir.*

## 26. RƏSSAM-İLLÜSTRATOR

*— Dekorativ hərflər —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Dərsin məqsədi – şagirdlərə hər gün istifadə etdikləri kitablarda daha bir rəssamın — illüstratorun rolunu izah etməkdir. Kitabların üz qabığında kitabın adı iri, müxtəlif formalı, ölçülü və rəngarəng naxışlı hərflərlə yazılır. Bu dərsdə müəllim kitabın bilik mənbəyi olduğunu, hərflərdən ibarət sözlərin isə böyük məna daşıdığını bildirir. Lakin hətta bir hərf belə oxucuya çox şey haqqında danışa bilər.*

Müəllim şagirdlərə müxtəlif nağıl kitablarında təsvir olunmuş dekorativ hərflər nümayiş etdirir və soruşur:



– Gördükləriniz haqda nə deyə bilərsiniz? *(təsvirlər, hərflər)*
– Onlar niyə adi hərflər kimi deyil? Burada nələr təsvir olunub? *(fərziyyələr)*
– Bu hərflərə harada rast gəlmək olar? *(kitablarda, nağıllarda)*
– Kiçikyaşlı uşaqlar oxumağı bilməsələr də, təsvir vasitəsilə nələrin baş verdiyini anlayırlar.

Nağıllarda mətnlərə çəkilmiş təsvirlərə ***illüstrasiya*** deyilir. Mətnin birinci — baş hərfi diqqəti cəlb edir. Rəssam özü bilərəkdən bu hərfi naxışlı, rəngli, cəlbedici edir. Bu hərfə diqqətlə nəzər salsaq, o, mətn haqqında çox şeylər söyləyə bilər. Qədim zamanlarda baş hərf qırmızı rəngi ilə seçilərdi. Elə o zamanlardan da onu "qırmızı hərf" adlandırardılar.

TƏDQİQAT SUALI: **Dekorativ hərfi çəkmək üçün nəyi bilmək lazımdır?**

Müəllim şagirdlərə ən çox sevdikləri hərfi çəkməyi tapşırır. Bu hərf onun ad və ya soyadının baş hərfi ola bilər. Onu flomasterlərlə bəzəyə və ya nəyə bənzədiyini təsvir edə bilərsiniz. Şagirdlərin sərbəst işi zamanı müəllim parta arasında gəzib istiqamət verir.

Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Rəsmi rəngləmə ilə əvəz etmək olar.

Təsvirlər təqdim edilir. Hər qrupun çıxışından sonra təriflər, suallar və təkliflər üsulundan istifadə edib təsvirləri müzakirə edirlər.

**Yaradıcı tətbiqetmə.** Nağıl kitablarından baş hərfləri seçərək onların rəngi, naxışı və hansı məna daşıdığını araşdırmaq.

**Qiymətləndirmə** I dərsdəki nümunəyə uyğun aşağıdakı təlim nəticələri üzrə aparılır: *sadə təsvir alətlərindən olan karandaş və flomaster ilə baş hərfin təsvirində istifadə edir; əsas rəngləri tanıyır, onları sadalayır; müxtəlif növ xətlərdən sadə hərflər çəkir, hazır hərflərdən kiçik kompozisiyalar qurur; verilmiş sadə formalı illüstrasiyaları və çəkdiyi hərflərdəki mənanı şərh edir.*

## 27. İNCƏSƏNƏT və MƏN
*— Muzeyə səyahət —*

***Təlim nəticələrinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat.*** *Bu dərs sonuncu bölmənin və dərs ilinin bir növ ümumiləşdirici mövzusu sayıla bilər. Hər bir müəllim ümumiləşdirici dərsin modelini (nümunəsini) şən və bayram ovqatı yaratmaqla özü qura bilər. Dərsdən əvvəl, sinifdə və yaxud məktəb foyesində şagirdlərin ilboyu təsvir etdikləri rəsmlərdən sərgi düzəltmək məqsədəuyğun olardı. Şagirdlər gördükləri işdən zövq alır, öz sevinc və nailiyyətlərini valideyn və dostları ilə bölüşməkdən fərəh hissi duyurlar. Bu həm də bütün sinfin əməyinin nəticəsi sayılır.*

Dərs prosesində şagirdlər "Təsviri incəsənət olmasaydı, insanın həyatında nə baş verərdi?" – ən əsas sual ətrafında cavab tapmağa çalışa bilərlər. Bu sual hər bir insanı, onu həyatı boyu əhatə edən İNCƏSƏNƏT ALƏMİNİN nə qədər zəruri olduğu haqda düşündürür.

Mövzu ilə bağlı muzeylərə ekskursiya təşkil etmək məqsədəuyğundur. Dərs zamanı nümayiş etdirilən reproduksiyalar rəssam əsərləri ilə canlı ünsiyyəti əvəz edilə bilməz. Bunun nə olduğunu isə yalnız əsl rəssam əsəri qarşısında başa düşmək mümkündür. Muzeyə ekskursiya zamanı müəllim şagirdlərə müşahidə vərəqləri hazırlaya bilər. Burada şagirdin tədris ili ərzində tanış olduğu mövzulara dair suallar tərtib etmək olar.

*Rəssamın adı* ______________________________
*Əsərin adı* ______________________________
*Nə təsvir olunub?* ______________________________
*Hansı materialdan istifadə edilib?* ______________________________
*Hansı hisləri ifadə edir?* ______________________________
*Əsəri daha necə adlandırmaq olar?* ______________________________
*Əsərdə ən çox yaddaqalan nədir?* ______________________________
*Rəssamın daha hansı işləri var?* ______________________________

Şagirdlərin kiçik yaşlarından klassik obrazlara cəlb edilməsini həm müəllim, həm də valideynlər tərəfindən atılan ən mühüm addım saymaq olar. Bu isə, öz növbəsində, şəxsiyyətin formalaşmasında əsas amillərdən biridir. İncəsənətin dahi klassik obrazları milli dünyagörüşünün tamlığını təşkil edir. Bu məşhur əsərlərin şagirdlərin yaddaşından silinməməsinə çalışmaq isə çox vacibdir. Bu nümunələr hər zaman öz dövrünün insanları üçün necə vardısa, şagirdlər tərəfindən də doğma incəsənətin təsdiqi kimi dərin fəxr hissi ilə yenidən kəşf edilməlidir.

Bu hislər, əlbəttə, şagirdlərdə tədricən formalaşacaq. Rəssam əsərlərinə birgə baxış zamanı müəllimin şagirdlərlə səmimi hisləri isə bu yaşda onlar üçün çox əhəmiyyətlidir. Şagirdlərə eyni zamanda çoxlu əsərə baxış keçirmək məsləhət görülmür. Ən vacibi — hər bir əsərin "ovqatını duymağı" öyrətməkdir. Əsərin müəllifini, adını müsahibə zamanı təkrarlamaq məqsədəuyğun olardı. Əgər muzey və sərgilərdə şagirdlər seyrçi idilərsə, sinifdə isə onlar rəssamdır.

Müəllim tərəfindən yaradılan mühit şagirdlərə özlərini əsl rəssam kimi hiss etməyi və bundan sevinc hissi duymağı oyrədir.

# “Görmək və yaratmaq məharəti” vahidi üzrə ümumiləşdirici tapşırıqlar

**1. İncəsənət əsərini qeyd et.**

a.□  b. □  c. □ 

**2. Əsərlərdən heykəltəraşlığı qeyd et.**

a. □  b. □  c. □ 

**3. Natürmortlarda nələr təsvir olunur?**

a. □ ƏŞYALAR b. □ TƏBİƏT c. □ İNSAN

**4. İllüstrasiyanı qeyd et.**

a. □  b. □  c. □ 

**5. Aplikasiya texnikasını qeyd et.**

a. □  b. □  c. □ 

**6. Dalğalı xətt, gül və yarpaqlardan nəbati naxış fikirləş və çək.**



**7. Meyvənin digər yarısını çəkərək tamamla və rənglə.**



# II yarımil üzrə ümumiləşdirici tapşırıqlar

**1. Mənzərə əsərlərində nə təsvir olunur?**

**a. □ TƏBİƏT** **b. □ İNSAN** **c. □ ƏŞYALAR**

**2. Səttar Bəhlulzadənin əsərlərində natürmort təsvirini göstər.**

**a. □**  **b. □**  **c. □** 

**3. Bu həcmli fəaliyyət növü necə adlanır? Damalarda qeyd et.**

  

| | | | | |
|---|---|---|---|---|
| | | | | |

**4. Ləpirlərin hansı canlıya aid olduğunu damalarda qeyd et.**



**a.**

| | | |
|---|---|---|
| | | |



**b.**

| | |
|---|---|
| | |



**c.**

| | | | | |
|---|---|---|---|---|
| | | | | |

**5. Ləkə formasının nəyi xatırlatdığını tap və çəkərək tamamla.**



**6. Mis dolçanın ikinci yarısını çəkərək tamamla. Üzərini naxışlarla bəzə.**



## TERMİNLƏR LÜĞƏTİ (yeni sözlər)

**Akvarel** (latınca “aqua” – su) – incə, şəffaf boya. İş zamanı sudan çox istifadə olunur. Bu boyalarla işlənilmiş rəsmlərə də “akvarel” deyilir.

**Aplikasiya** (latınca “applicaatio” – yapışdırma) – rəngli kağız, dəri, məxmər parçaların kağız və ya parça üzərinə yapışdırılması; yapışdırma yolu ilə ornament və bədii rəsmlərin hazırlanması.

**Boyakar** – kətan, lövhə, karton, kağız üzərində rənglərlə işləyən rəssam.

**Dekorativ-tətbiqi sənət** (latınca “dekoro” – bəzəyirəm) – özünəməxsus dekorativ obrazlılıq və bədii mahiyyətə malik olan incəsənət növü; müxtəlif materiallardan (ağac, gil, daş, parça, şüşə, metal) hazırlanan əsərlər.

**Dizayn** (ingiliscə “design” – rəsm, ideya, fikir) – əşyaların layihələndirilməsi ilə bağlı yaradıcı sahə. Dizaynerin əsas məqsədi hazırladığı məhsulun rahat və cəlbedici olmasıdır.

**Əsas rənglər** – digər rənglərin qarışığı nəticəsində alınmayan qırmızı, göy və sarı rənglər.

**Fantaziya** (yunanca “phantasia” – təxəyyül, təsəvvüretmə) – arzu, xülya, reallıqda mövcud olmayan uydurma.

**Heykəl** – insan və heyvan təsvirlərinin həcmli şəkildə hazırlanması (düzəldilməsi). Heykəl həcmli olduğu üçün ona hər tərəfdən baxmaq mümkündür. Metal, daş, gil, ağac, gips, qum, buz və digər materiallardan düzəldirlər.

**Heykəltəraş** – heykəllər yaradan sənətkar. O, heykəlləri gildən, plastilindən yapma, daşdan – yonma, ağacdan – oyma üsulu ilə yaradır.

**Heykəltəraşlıq** – ən qədim incəsənət növlərindən biri; heykəltəraşlıq əsərləri həcmli formaya malikdir. Müxtəlif bərk və plastik (yoğrulan, istənilən şəklə salına bilən) materiallardan hazırlanır.

**Həndəsi naxışlar** – həndəsi fiqurlardan (onların elementlərindən) ibarət bəzək növü.

**İllüstrasiya** (latınca “illustratio” – izahetmə, aydın təsvir) – kitabda mətnlə yanaşı, rəssam təsvirləri – mətnin təsvir vasitəsilə ifadəsi. Bu təsvirlər əsərin qəhrəmanlarını, hadisələrin baş verdiyi məkanı əks etdirir.

**Karandaş** (türkcə “qara daş”) – təbii material olan qrafitdən və ya xüsusi rəngləyici maddələrdən hazırlanan rəsm aləti. Qrafitin səthi, adətən, taxta qabıqla örtülür.

**Keramika** (dulusçuluq sənəti) – təbii gildən müxtəlif məmulatları yaratma sənəti.

**Kətan** – üzərində yağlı boya ilə işləmək üçün material.

**Kompozisiya** (latınca “compositio” – qurulma, tərtibetmə, yaratma) – rəssam əsərlərini təşkil edən elementlərin bir-biri ilə uyğunluğu və əlaqəsi.

**Qarışıq rənglər** – əsas rənglərin qarışığından alınan narıncı, yaşıl və bənövşəyi rənglər.

**Qrafik** – qrafika sahəsində çalışan rəssam.

**Qrafika** (yunanca “graphike” – çəkirəm, yazıram) – təsviri incəsənətin səth üzərində yaradılan növü. Kağız və ya karton üzərində karandaş, kömür, qələmlə çəkilir. Az rəng istifadə olunmasına görə rəngkarlıqdan fərqlənir. Qrafikanın əsas ifadə vasitələri: xətt, ştrix, kontur, ləkə və ton.

**Quaş** (italyanca “guazzo” – nəm) – şəffaflığı olmayan, örtücü xüsusiyyətə malik boya. İş zamanı boyadan çox, sudan az istifadə olunur.

**Memar** – bina, körpü və digər tikililərin konstruksiyasını, tərtibatını işləyib hazırlayan rəssam.
**Memarlıq abidələri** – xalqın, ölkənin, şəhərin milli tarixini əbədiləşdirən memarlıq tikililəri. Onlar, adətən, dövlət tərəfindən qorunur.
**Məişət janrı** – şəhər və ya kənd sakinlərinin gündəlik həyatlarını əks etdirən təsvirlər.
**Mənzərə janrı** (fransızca "paysage" – məkanın görünüşü) – təbiətin sonsuz müxtəlifliyini (dağ, çay, meşə, tarla, dəniz, şəhər və s.) təsvir edən janr. Mənzərə janrı təsvirləri rəssamın ətraf aləmə münasibətini, hiss və əhvali-ruhiyyəsini əks etdirir.
**Mozaika** (fransızca "mosaque", italyanca "mosaico" – ilahələrə ithaf edilən) – ala-bəzək saxsı parçalarından quraşdırılmış tematik təsvir və ya ornamental bəzək.
**Muzey** (yunanca "museion", muza – incəsənət və elm ilahəsi) – tarixi, maddi və mənəvi dəyərlərin saxlandığı, qorunduğu, öyrənildiyi məkan.
**Natura** – təsvir zamanı rəssamın qarşısında olan və müşahidə edilən real obyektlər (insan, əşya, təbiət və s.).
**Natürmort janrı** (fransızca "nature morte", italyanca "natura morta" – dəqiq tərcüməsi: "cansız təbiət") – məişət, əmək, yaradıcılığı əks etdirən əşyalar, adətən, çiçəklər, qida məhsulları təsvir edilən əsərlər. Natürmortlarda, əsasən, əşyalar və onların məxsus olduğu insanın yaşadığı mühit təsvir edilir.
**Nəbati naxışlar** – təbiət varlıqları olan gül, yarpaq, budaq və digər elementlərdən ibarət bəzək növü.
**Oriqami** ("oru" – qatlamaq, "gami" – kağız) – yapon mədəniyyətində kağız qatlama sənəti.
**Ornament** (latınca "ornamentum" – bəzək) – müxtəlif xətt, fiqur, forma və təbiət varlıqlarından (gül, yarpaq, budaq, balıqqulağı, həşərat), heyvan motivlərindən ibarət naxış kompozisiyası.
**Panno** – məhdudlaşdırılmış səth üzərində dekorativ kompozisiya, yəni divarın, tavanın bəzədilmiş səthi.
**Pastel** (italyanca "pasta" – xəmir) – bədii material; tərkibi bağlayıcı maddələrlə zəngindir (bu maddələr tabaşirin formasını saxlamağa imkan verir). Pastel tabaşirlərdə hər bir rəngin müxtəlif çalarları mövcuddur.
**Plastilin** (yunanca "plastos" – yapma) – heykəltəraşlıqda yapma material. Plastilin də gil kimi müvəqqəti, yardımçı materialdır.
**Portret janrı** (fransızca "portrait" – dəqiq cizgilər) – insan surəti təsvir edilən əsərlər. Bu əsərlərdə insanın daxili aləmi, xarakterinin əsas xüsusiyyətləri əks olunur.
**Proporsiya** (latınca "proportio" – nisbət, uyğunluq, mütənasiblik) – bədii əsərin ölçülərinin bir-birinə nisbəti.
**Rəsm** – səth üzərində kontur (xətt, cizgi), rəng vasitəsilə yaradılan təsvir.
**Rəssam** – yaradıcılıq istedadına malik, incəsənəti anlayan və incəsənət əsəri yaradan, ətraf mühitin gözəlliyini insanlara təsvir vasitəsilə çatdıran sənətkar.
**Təsvir etmək** – ətraf aləmi seyr etmək, müşahidələr aparmaq və müqayisə edərək çəkmək bacarığı.

# MƏNBƏLƏR


1. A.Əhmədov, Ə.Abbasov. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
2. Q. Hüseynov və b. İnklüziv təhsil (ibtidai təhsil pilləsi üçün), 2010.
3. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası EXXON MMM. İncəsənətin misilsiz sərvəti. Bakı, "Ayna" Mətbu Evi, 1999.
4. Rasim Əfəndiyev. "Azərbaycan xalq sənəti". Bakı, "İşıq" nəşriyyatı, 1984.
5. Rasim Əfəndi. "Azərbaycan incəsənəti". Bakı, "Şərq-Qərb ", 2007.
6. Sadıqzadə Ş.H. "Qədim Azərbaycan bəzəkləri". Bakı, "İşıq" nəşriyyatı, 1971.
7. Azərbaycan Uşaq Folkloru Kitabxanası. "Mərasimlər, adətlər, alqışlar..." 1-ci kitab. Bakı, "Gənclik", 1993.
8. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. "Naxışların yaddaşı". Bakı, "Azərnəşr", 1981.
9. Hüseynov M., Bretanitski M., Salamzadə M. "Azərbaycan memarlığı tarixi". Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu. İnşaat, memarlıq və inşaat materialları ədəbiyyatı Dövlət nəşriyyatı, Moskva, 1963.
10. Lətif Kərimov. "Azərbaycan xalçası". Bakı, "Yazıçı", 1985.
11. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
12. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Lider", 2004.
13. Наджафов М. "Саттар Бахлулзаде". Живопись. Москва, "Советский художник", 1985.
14. Живопись Азербайджанской ССР. 1960-е годы. Москва, "Советский художник", 1976г. Автор-составитель М.Наджафов.
15. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
16. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
17. Детская энциклопедия. Том 12. Москва, Издательство "Педагогика", 1977.
18. Лавров А.М. "Школа. Учитель. Искусство". Москва "Просвещение", 1981.
19. Белютин Э.М. "Основы изобразительной грамоты". Издательство "Советская Россия", Москва, 1961.
20. "Рисунок и живопись», том 1. Государственное издательство "Искусство". Москва, 1961.
21. "Энциклопедический словарь юного художника". Москва, "Педагогика", 1983.
22. "Изобразительное искусство Азербайджанской ССР". Москва, "Советский художник", 1978.
23. "Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства". Сокольникова Н.М., Ломов С.П. Книга для семейного чтения и творческого досуга. АСТ. "Астрель", Москва, 2009.
24. "Цвет и линия". Ю.Аксенов, М.Левидова. Практическое руководство по рисунку и живописи. Москва, "Советский художник", 1976.
25. Роджер Эрб, Стефан Зелевски. "Цвет и свет". Энциклопедия. Издательство "Мир книги", 2007.
26. Ящухин А.П. "Живопись". Москва, "Просвещение", 1985.
27. Кастерман Ж. "Живопись". Рисуй и самовыражайся. Детское справочное бюро. Москва, Издательство АСТ. "Астрель", 2002.
28. Элвин Крошо, "Акварель" – как рисовать, Москва, Издательство АСТ. "Астрель", 2006.
29. PC CD-ROM / Самоучитель TeachPro . "Изобразительное искусство" (для младших школьников). ООО "1С-Паблишинг", 2007.
30. Н.М. Конышева. Наш рукотворный мир. М. 1996
31. http://azerbaijan.az/portal/index_a.html?lang=az
32. http://azerbaijan.az/portal/Nature/General/generalInfo_a.html
33. http://www.irs-az.com/index/rub.php?lang=1&n=4
34. http://karabakhblog.com/
35. http://www.etnolog.ru/image.php?id=ENGG
36. http://www.etnolog.ru/world-house.php
37. http://memorial.aznet.org/centxix3.shtml
38. http://www.adam.az/az.php?category=1
39. http://www.azeri.ws/culture/
40. http://www.azeri.ws/culture/providence.shtml
41. http://www.advantour.com/rus/azerbaijan/ (az.sheherleri)
42. http://www.azerbaijan.az/portal/maps/tourism_a.html
43. http://origami-paper.ru/
44. http://www.liveinternet.ru/users/valkiriyaodina/post182300831/
45. http://azerilme.com/xalcalar.html
46. http://www.liveinternet.ru/users/alona777/post188981467/
47. http://www.ruchnoi.ru/foto/golovolomka-tangram-figury-zadaniya
48. http://www.detskij-sad.ru/
49. http://www.rebionok.ru/igri/201-igry-dlja-detei-5-6-let.html
50. http://www.azeri.ws/culture/providence.shtml
51. http://www.advantour.com/rus/azerbaijan/ (az.sheherleri)
52. http://www.azerbaijan.az/portal/maps/tourism_a.html
53. http://origami-paper.ru/
54. http://www.liveinternet.ru/users/valkiriyaodina/post182300831/
55. http://azerilme.com/xalcalar.html
56. http://www.liveinternet.ru/users/alona777/post188981467/
57. http://www.ruchnoi.ru/foto/golovolomka-tangram-figury-zadaniya
58. http://www.detskij-sad.ru/
59. http://www.art-uroki.ru/risuem_onlayn.htm
60. http://www.rebionok.ru/igri/201-igry-dlja-detei-5-6-let.html

*BURAXILIŞ MƏLUMATI*

**Təsviri incəsənət– 1**
*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Təsviri incəsənət fənni üzrə*
*metodik vəsait*

**Tərtibçi heyət:**

Müəlliflər: **Kəmalə Əhməd qızı Cəfərzadə**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 6,8. Fiziki həcmi: 7 çap vərəqi.
Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195x275.Səhifə sayı: 56.
Şriftin adı və ölçüsü: Times New Roman qarnituru 11 pt. Ofset kağızı.Ofset çapı.
Sifariş ____ . Tiraj 8530. Pulsuz. Bakı – 2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 20.07.2020**

Nəşriyyat:
**“Bakı” nəşriyyatı** (Bakı ş., H.Seyidbəyli küç., 30).

Çap məhsulunu istehsal edən:
**“Radius” MMC** (Bakı ş., Binəqədi şossesi, 53).

Pulsuz